

# İkitərəfli münasibətlərin QIZIL DÖVRÜ

Azərbaycan türk xalqları arasında birləşdirici körpü rolunu oynayır. Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin ölkəmizə səfəri zamanı Bakının üzərinə götürdüyü bu tarixi missiyanın uğurla həyata keçirildiyinin bir daha əyani şahidi olduq.

Şavkat Mirziyoyevin Azərbaycana səfəri bir sıra mühüm məqamları ilə yadda qaldı. İkitərəfli əlaqələrin inkişafı ilə bağlı alınan qərarlar tək iki ölkənin münasibətlərini yox, həm də bütövlükdə Cənubi Qafqaz-Mərkəzi Asiya regionunun gələcəyini şəkilləndirəcək.

Bu həmrəyliyin ən gözəl nümunəsi Füzuli şəhərində inşa edilən məktəbdir. Prezident İlham Əliyev Şavkat Mirziyoyevin təşəbbüsü ilə tikilən və səfər çərçivəsində açılışı olan məktəbi Qarabağın bərpası işində xarici dövlətin ilk hədiyyəsi kimi dəyərləndirib.

SƏHİFƏ 3-də

‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

www.kaspi.az

ÜÇ ƏSRİN QƏZETİ

Kaspi

26 AVQUST ŞƏNBƏ 2023 | 31 (1433)

Qiyməti - 40 qəpik



## QEYRİ-NEFT SEKTORU ƏSAS GƏLİR MƏNBƏYİNƏ ÇEVRİLİR

İxracın idxalı üstələməsində tək neft-qaz sektoru deyil, həm də qeyri-neft sektoru əhəmiyyətli baza formalaşdırır. Qeyri-neft ixracının həcminin artması manata xarici təzyiqlərin neytrallaşdırılmasında da mühüm rol oynayır.

SƏHİFƏ 12-də



## “RƏQQAS”IN “SÜLH GÖYƏRÇİNİ”NƏ ÇEVRİLMƏSİ

Ermənistan hərbi-siyasi rəhbərliyi düşdüyü acınacaqlı vəziyyətdən çıxmaq üçün yollar axtarır. Baş nazir Nikol Paşinyanın birdən-birə ölkəsinin “müstəqillik bəyannaməsi”ni tənqid etməsi də bu kontekstdə qiymətləndirilə bilər.

SƏHİFƏ 7-də



## “HEÇ ZAMAN ÖZÜMÜ BİR REJİSSORA BAĞLAMAMIŞAM”

Kənan Məmmədov: “Mənim üçün işıq, texnika artıq geridə qalıb. Operator gərək bu texniki işləri o səviyyədə bilsin ki, o barədə fikirləşməsin. Heç vaxt düşünməmişəm ki, hansı kamera ilə çəkəcəm, hansı işıqdan istifadə edəcəyəm?”

SƏHİFƏ 8-9-da



# XALQIN MARAQLARININ MÜDAFİƏÇİSİ

Xalq sözün əsl mənasında Birinci vitse-prezident Mehriban Əliyevanı sevir! İnsanlar dara düşəndə, çətinliklə üzləşəndə ilk olaraq Heydər Əliyev Fonduna, Birinci vitse-prezidentə müraciət edirlər.

**MƏCBURİ KÖÇKÜNLƏRƏ GÖSTƏRİLƏN QAYĞI**

Hələ torpaqlarımız Ermənistan işğalı altında olduğu illərdə Prezident İlham Əliyevlə birlikdə, həm də fərdi qaydada qaçqın və məcburi köçkünlərlə görüşən, onların problemlərini dinləyən Mehriban Əliyeva 2017-ci ildə Birinci vitse-prezident təyin olunandan sonra da dövlət xadimi kimi ilk fəaliyyətini bu istiqamətdə gerçəkləşdirib.

**VERİLƏN SÖZƏ MƏSULİYYƏTLİ YANAŞMA**

Onun vaxtilə şəhid anaları qarşısında səsləndirdiyi fikirlər indi yaşadığımız gerçəkliklərdir. Bu gün üçrəngli, ay-ulduzlu bayrağımız azad Qarabağın hər bir kəndində, şəhərində qürurla dalğalanır. İşğalda olduğu 30 ilə yaxın müddətdə xarabalığa çevrilən yurd yerlərimizə həyat yenidən qayıdır.

SƏHİFƏ 4-də

## PREZİDENT İLHAM ƏLİYEVİN ƏN YAXIN SİLAHDAŞI



Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə ucalanların qisası alınmaqla yanaşı, onların xatirəsi daim hörmətlə anılır, uca tutulur, ailə üzvlərinin sosial qayğıları qarşılanır. Bütün bunlar gerçəklikdir və bu gerçəkliyin yaşanmasında Prezident İlham Əliyevin ən yaxın silahdaşına çevrilən, xalqın hakimiyyətə inamının möhkəmlənməsinə, ölkə rəhbərinin siyasi nüfuzunun daha da yüksəlməsinə əməli töhfələr verən Mehriban xanım Əliyevanın böyük payı var.



## VAŞİNQTONUN “MİNİ NATO” PLANI

ABŞ, Yaponiya və Cənubi Koreya vahid hərbi blok yaratmaq istiqamətində irəliləyirlər. Bu üç ölkənin Çinə qarşı yeni hərbi birlik - “mini NATO” yaradacaqları ehtimalı var. Çin hesab edir ki, yeni hərbi birlik yaradılsa, bu, regiona dağıdıcı təsir edəcək.

SƏHİFƏ 10-da



## PRİQOJİNİN İKİNCİ SİRLİ ÖLÜMÜ

“Vaqner”in təsisçisi Yevgeni Priqojinin də həlak olduğu bildirilən təyyarənin qəzaya uğramasının səbəbləri rəsmi olaraq açıqlanmır, araşdırmalar davam edir. KİV-in məlumatına görə, əsas versiya borta yerləşdirilmiş bombadır.

SƏHİFƏ 5-də



## ŞAHMATIMIZIN GEC PARLAYAN ULDUZU

Nicat Abasov Bakıda yalnız dünya şahmatının ilk iki pilləsində qərarlaşanlara uduzdu. Bu nəticə ilə o, İddiaçılar turnirinə vəsiqə qazandı. Kim bilir, bəlkə də gələn il Nicatı dünya çempionluğu uğrunda çinli Dinq Lijenlə mübarizədə görəcəyik...

SƏHİFƏ 16-da



Anahitin yiyəsiz nəvələri

Səhifə 6-da



Su dünyanın ən bahalı məhsulu ola bilər

Səhifə 11-də



Sürətli yox, ağılla arıqlamaq lazımdır

Səhifə 14-də



Perspektivli bazarlarla bağlı uğurlara töhfə verəcək saziş

Səhifə 2-də



Yazıçı mütləq savadlı olmalıdır

Səhifə 15-də

ÜÇ ƏSRİN QƏZETİ Kaspi






## Perspektivli bazarlarla bağlı uğurlara töhfə verəcək saziş

Azərbaycan və Özbəkistan arasında enerji tərəfdaşlığının möhkəmləndirilməsində mühüm addım bu ölkələrin dövlət neft şirkətləri arasında sazişin imzalanması olub. Bunu "Report"a açıqlamasında özbəkistanlı ekspert, iqtisadçı Uluqbek Kamaletdinov deyib. O qeyd edib ki, "Özbəkneftqaz" ASC ilə Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) arasında imzalanmış sənəd, ölkələr arasında enerji tərəfdaşlığının möhkəmləndirilməsində ilk və mühüm addımdır: "Hər iki ölkənin enerji ehtiyatlarının kəşfiyyatı, hasilatı, emalı və nəqli sahəsində kifayət qədər təcrübəsi var".

Ekspert vurğulayıb ki, neft-kimya sahəsində əməkdaşlıq enerji sektorunda Azərbaycan-Özbəkistan əlaqələrini daha da dərinləşdirəcək: "Neft-qaz və kimya sahəsində müasir texnologiyaların tətbiqi və yüksək keyfiyyətli xammalın olması iqtisadiyyat üçün genişmiqyaslı effekt yarada bilər. Bu sənaye sintetik liflər, ilk növbədə, akril, sintepon materialları, boyalar, polietilen, tikinti materialları və digər məhsulların istehsalının inkişafına əhəmiyyətli təsir göstərir".

Ekspertin fikrincə, hər iki ölkə enerji məhsullarının yeni bazarlarda payının artırılması üçün əhəmiyyətli rəqabət üstünlüklərinə malikdir. İkitərəfli əlaqələrin möhkəmləndirilməsi isə perspektivli bazarlarla bağlı uğurlara töhfə verəcək: "Əgər Özbəkistan Azərbaycanın enerji məhsullarının Mərkəzi Asiya və Çin ölkələrinə ixracı üçün yaxşı tranzit imkanlarına malikdirsə, Azərbaycan da bizim məhsullarımızın Avropa İttifaqı ölkələrinə və Türkiyəyə ən qısa marşrutudur".

# Prezidentlə birinci xanım Kəlbəcər və Laçında



**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər və Laçın rayonlarına səfər ediblər. Səfər çərçivəsində hər iki rayon ərazisində bir sıra açılışlar reallaşıb, görülən işlər barədə məruzələr dinlənilib.**

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər və Laçın rayonlarına səfər ediblər. Səfər çərçivəsində hər iki rayon ərazisində bir sıra açılışlar reallaşıb, görülən işlər barədə məruzələr dinlənilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 25-də Kəlbəcər rayonuna səfər ediblər.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı və birinci xanım "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin "Soyuqbulaq" Kiçik Su Elektrik Stansiyasının açılışında iştirak ediblər, "İstisu" Mineral sudoldurma zavodunun tikintisi ilə tanış olublar.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya "İstisu" Müalicə-İstirahət Kompleksində görülən işlər barədə məlumat verilib.

Dövlətimizin başçısı "AzərEnerji" ASC-nin "Çıraq-1" və "Çıraq-2" Kiçik Su Elektrik stansiyalarının açılışında iştirak edib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zar kəndinin təməlqoyma mərasimində də iştirak ediblər.

### "SOYUQBULAQ" KİÇİK SU ELEKTRİK STANSİYASININ AÇILIŞI

"AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin 5,3 MVA gücündə olan "Soyuqbulaq" Kiçik Su Elektrik Stansiyasının açılışı zamanı Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya stansiyada görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, Kəlbəcər rayonunun ərazisindən keçən bol sulu Tərtər çayı üzərində yerləşən "Soyuqbulaq" Kiçik Su Elektrik Stansiyası "AzərEnerji" tərəfindən tamamilə yenidən qurulub. Bu stansiya enerjisistemə tam inteqrasiya olunmaqla məsafədən idarəetməyə imkan verən mərkəzləşdirilmiş SCADA sisteminə qoşulub. Stansiyada il ərzində 15,5 milyon kilovat-saat elektrik enerjisi istehsal olunacaq.



## "İSTİSU" ZAVODU YENİDƏN TİKİLƏCƏK

Prezident və birinci xanım Kəlbəcər rayonunda "İstisu" mineral sudoldurma zavodunun tikintisi və "İstisu" Müalicə-İstirahət Kompleksində görülən işlərlə də tanış olublar.

Bildirildi ki, yeni tikiləcək "İstisu" zavodu 7,8 min kvadratmetr ərazini əhatə edəcək. Müəssisədə ikinövbəli əsasda təxminən 100 nəfər işlə təmin olunacaq. Zavodda Almaniya şirkəti tərəfindən təchiz olunan şüşə və plastik qablaşdırma istehsal xətləri fəaliyyət göstərəcək. Şüşə dolum xəttinin nominal gücü saatda 16 min, plastik dolum xəttinin nominal gücü isə saatda 8 min ədəd təşkil edəcək. Aylıq istehsal gücü isə 8 milyon ədədə yaxın olacaq.

"İstisu" Müalicə-İstirahət Kompleksinin layihəsi barədə də məlumat verildi. Bildirildi ki, bərpa ediləcək "İstisu" Müalicə-İstirahət Kompleksinin ümumi sahəsi 32 min kvadratmetr olacaq. Kompleksdə 145 nömrə, eləcə də 10 kottec yaradılacaq. Kompleksdəki SPA Mərkəzində isə termal hamam, müalicəvi vanna, həkim otağı, o cümlədən müxtəlif müalicəvi hovuzlar, prosedur otaqları, təzyiqli su terapiyası, masaj, buxar, duz otaqları, istirahət zonaları, gözəllik salonu mövcud olacaq. Burada müxtəlif iaşə obyektləri - restoranlar, uşaq əyləncə mərkəzi, oyun otağı, sportskafe, karaoke otağı, kafeteriya da qonaqlara xidmət göstərəcək.

## İLHAM ƏLİYEV VƏ MEHRİBAN ƏLİYEVA LAÇIN RAYONUNDA

Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 25-də Laçın rayonuna da səfər ediblər.

Prezident İlham Əliyev "AzərEnerji" ASC-nin "Mişni" və "Alxaslı" Kiçik Su Elektrik stansiyalarının açılışlarında iştirak edib.

Dövlətimizin başçısı və birinci xanım Laçın Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanış olublar.

Prezident İlham Əliyev Kəlbəcər-Laçın avtomobil yolunun 38-ci kilometrliyindən 76-cı kilometrliyinədək olan hissəsində həyata keçirilən işlərlə tanış olub.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçın şəhərinə yaxın ərazidə inşa ediləcək mehmanxana kompleksinin təməlqoyma mərasimində, Laçın rayonunun sənaye zonasında mebel fabrikinin açılışında iştirak edib, prefabrik modul evlərin istehsalı müəssisəsinin və xırdabuynuzlu heyvanların saxlanılması məntəqəsinin fəaliyyəti ilə tanış olublar. Prezident və xanımı həmçinin "Hoçazfilm" yaradıcılıq studiyasının çəkiliş pavilyonunun və "Həkəri Balıq Təsərrüfatı"nın açılışlarında da iştirak ediblər.

## ŞAVKAT MİRZİYOYEVİN FÜZULİ VƏ ŞUŞAYA GETMƏSİ XÜSUSİLƏ DİQQƏTƏLAYİQDİR







# İkitərəfli münasibətlərin QIZIL DÖVRÜ

Azərbaycan türk xalqları arasında siyasi-iqtisadi, coğrafi, mədəni-mənəvi birləşdirici körpü rolunu oynayır. Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin ölkəmizə səfəri zamanı Bakının üzərinə götürdüyü bu tarixi missiyanın uğurla həyata keçirildiyinin bir daha əyani şahidi olduq.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Prezident İlham Əliyevin dəvəti ilə Şavkat Mirziyoyevin Azərbaycana dövlət səfəri bir sıra mühüm məqamları ilə yadda qaldı. İkitərəfli əlaqələrin inkişafı ilə bağlı alınan qərarlar tək iki ölkənin münasibətlərini yox, həm də bütövlükdə Cənubi Qafqaz-Mərkəzi Asiya regionunun gələcəyini şəkilləndirəcək.

### QARABAĞIN BƏRPASINA XARİCİ DÖVLƏTİN İLK HƏDİYYƏSİ

Azərbaycan və Özbəkistan arasında siyasi münasibətlər tarixən çox yüksək səviyyədə olub, hər iki ölkə beynəlxalq platformalarda bir-birlərini daim dəstəkləyiblər. Özbəkistan 2008-ci ilin martında BMT Baş Assambleyasında səsverməyə çıxarılmış "Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyət" adlı qətnamənin lehinə səs verən yeganə Mərkəzi Asiya ölkəsi idi.

Bu həmrəyliyin ən gözəl nümunəsi işğaldan azad edilən Füzuli şəhərində Özbəkistan maliyyəsi ilə inşa edilən məktəbdir. Prezident İlham Əliyev Şavkat Mirziyoyevin şəxsi təşəbbüsü ilə Füzulidə tikilən və səfər çərçivəsində açılışı olan məktəbi Qarabağın bərpası işində xarici dövlətin ilk hədiyyəsi kimi dəyərləndirib. Şavkat Mirziyoyevin Füzuli və Şuşaya getməsi, keçmiş məcburi köçkünləri qayıdış münasibəti ilə şəxsən təbrik etməsi xüsusilə diqqətəlayiqdir. Prezident seçildikdən sonra ilk rəsmi səfərini Azərbaycana edən Şavkat Mirziyoyev, həm də Rəcəb Tayyib Ərdoğandan sonra işğaldan azad edilmiş rayonlara gedən ikinci xarici ölkə başçısıdır.



## AZƏRBAYCANIN TARİXİ MİSSİYASI

Azərbaycanın xarici siyasətində türk dövlətləri ilə əlaqələrin genişləndirilməsi hər zaman prioritet istiqamətlərdən olub. 2011-ci ildə imzalanan Naxçıvan Bəyannaməsindən keçən müddət ərzində türk dövlətləri arasında əlaqələrin daha üst səviyyəyə qaldırılması missiyası uğurla davam etdirilir. Təbii ki, bu məsələdə ən böyük rol Azərbaycanın üzərinə düşür. Ölkəmiz türk xalqları arasında siyasi-iqtisadi, coğrafi, mədəni-mənəvi birləşdirici körpü rolunu oynayır. Şavkat Mirziyoyevin ölkəmizə səfəri zamanı Azərbaycanın üzərinə götürdüyü bu tarixi missiyanın uğurla həyata keçirildiyinin bir daha əyani şahidi olduq.

### BİR MİLYARD DOLLARLIQ HƏDƏF

İki ölkə arasında qarşılıqlı ticarət dövriyyəsi əvvəlki illərlə müqayisədə 10 dəfədən çox artıb. 2016-cı ildə 15,3 milyon dollarlıq dövriyyə ötən il 183,3 milyon dolları ötüb. İqtisadi sahələrdə əməkdaşlığın dərinləşdirilməsinə dair aparılan müzakirələr və imzalanan sənədlər, 14 istiqaməti əhatə edən Yol Xəritəsi ciddi perspektivdən xəbər verir. Lakin dövlət başçılarının da vurğuladığı kimi, mövcud göstəricilər potensialı tam əks etdirmir. Məhz bunun məntiqi nəticəsi olaraq Bakıdakı son müzakirələrdə qarşılıqlı ticarət dövriyyəsinin 1 milyard dollara çatdırılması qarşıya hədəf kimi qoyulub. İki ölkə arasında qarşılıqlı sərmayə qoyuluşlarının həcmi də artır.

## NƏQLİYYAT-LOGİSTİKA SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ

Son iki ildə dünyada yaşanan kataklizmlər beynəlxalq səviyyədə tranzit nəqliyyat dəhlizlərinin yenidən formalaşdırılması, alternativ imkanların genişləndirilməsi zərurətini ortaya qoyub. Azərbaycanın ali rəhbərliyinin uzaqgörən siyasəti nəticəsində əlverişli coğrafi mövqeyimiz nəzərə alınaraq bu işlərə, həmçinin gələcək gözləntilərin qarşılanması üçün yeni layihələrin icrasına hələ illər öncə başlanılıb. Artıq Azərbaycan yeni reallıqlar və gözləntilər fonunda dünya dövlətlərinə, xüsusilə də bizə coğrafi baxımdan yaxın ölkələrə çox rahat şəkildə özünün tranzit imkanlarını təqdim edir, əlverişli şərtlər irəli sürür.

Özbəkistan ərazisindən də çoxsaylı beynəlxalq və regional nəqliyyat dəhlizləri keçir. 2018-ci ildən etibarən, bu ölkə özünün nəqliyyat infrastrukturunun yenilənməsinə, logistik imkanlarının genişlənməsinə böyük diqqət ayırır. Həm Azərbaycan, həm də Özbəkistan olduqca mühüm və strateji əhəmiyyət kəsb edən geostrateji mövqelərə sahibdirlər. Bu sahədə qarşılıqlı əməkdaşlığın genişləndirilməsi digər qonşu ölkələrin "Transxəzər" nəqliyyat dəhlizinə marağını daha da artıracaq. Ölkəmizin Mərkəzi Asiya ölkələri ilə son illərdə qarşılıqlı əməkdaşlığının əsas qayələrindən biri məhz "Transxəzər" nəqliyyat dəhlizinin beynəlxalq səviyyədə vazkeçilməz istiqamət olaraq müəyyənləşdirməsinə nail olmaqdır. Təbii ki, bu məsələdə Mərkəzi Asiyanın sürətlə inkişaf edən, lider ölkələrindən biri olan Özbəkistanla strateji əməkdaşlıq mühüm əhəmiyyətə malikdir. Beləliklə, Azərbaycan-Özbəkistan əlaqələrinin inkişafı həm də Qərblə Şərqi bir-birinə daha da yaxınlaşdırır.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 457-02-03
(+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az



# XALQIN MARAQLARININ MÜDAFİƏÇİSİ

Xalq sözün əsl mənasında Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanı sevir! İnsanlar dara düşəndə, çətinliklə üzləşəndə ilk olaraq Heydər Əliyev Fonduna, Birinci vitse-prezidentə müraciət edirlər.



RUFİK İSMAYILOV

Azərbaycan dövlətinin və xalqının maraqlarını hər şeydən üstün tutan, ölkəmizə layiqincə xidmət edən Mehriban xanım Əliyevanın hərtərəfli fəaliyyətindən geniş söhbət açmaq olar. O, Birinci xanım, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini kimi ölkə həyatının bütün sahələrində irəli sürdüyü uğurlu təşəbbüslərlə, gördüyü işlərlə cəmiyyətdə, insanların qəlbində özünəməxsus yer tutub. Xalq sözün əsl mənasında Mehriban xanım Əliyevanı sevir! Dara düşəndə, çətinliklə üzləşəndə insanlarımızın üz tutduğu ilk istiqamət Heydər Əliyev Fondu, Birinci vitse-prezident olur! Mehriban Əliyeva Prezident İlham Əliyevin və xalqımızın etimadını layiqincə doğruldub. Uzun illərdir Azərbaycanın ictimai-siyasi, mədəni həyatında mühüm və fəal rol oynayan Mehriban Əliyeva fəaliyyəti boyunca şəhid ailələrinin, müharibə əlillərinin, qaçqın və məcburi köçkünlərin qayğılarına xüsusi həssaslıqla yanaşıb.

### QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRƏ GÖSTƏRİLƏN QAYĞI

Hələ torpaqlarımız Ermənistan işğalı altında olduğu illərdə Prezident İlham Əliyevlə birlikdə, həm də fərdi qaydada qaçqın və məcburi köçkünlərlə görüşən, onların problemlərini dinləyən Mehriban Əliyeva 2017-ci ildə Birinci vitse-prezident təyin olunandan sonra da dövlət xadimi kimi ilk fəaliyyətini bu istiqamətdə gerçəkləşdirib. Aidiyyəti dövlət qurumlarının rəhbərləri ilə iclas keçirən Birinci vitse-prezident qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində göstərişlər verib. Bu tapşırıqların vaxtında və dəqiqliklə icrası zamanı öz dədə-baba yurdundan zorla qovulan vətəndaşlarımız yeni mənzillərlə təmin edilib, bir çox sosial qayğılardan azad olunublar. Məcburi köçkünlərlə yeni mənzillərində görüşən Mehriban Əliyeva onları əmin edib ki, gün gələcək, Qarabağ sakinləri qonaqları öz ata-baba yurdlarındakı mənzillərində qarşılayacaqlar. 2020-ci ilin 44 günlük Vətən müharibəsində Ordumuzun işğal altındakı torpaqlarımızı yağı düşməndən təmizləməsi Qarabağ və ətraf rayonların genişmiqyaslı tikinti-quruculuq meydanına çevrilməsi, şəhər, kənd və qəsəbələrin sürətli bərpası ilə nəticələnib. Keçmiş məcburi köçkünlərlə bu dəfə onların öz evlərində görüşən Mehriban Əliyeva verdiyi vədlərə sadiqliyini, dövlətimizin daim vətəndaşlarımızın yanında olduğunu bir daha nümayiş etdirib.



## ŞƏHİD AİLƏLƏRİNİN, QAZİLƏRİN ƏSAS HİMAYƏÇİSİ

Mehriban xanım Əliyeva şəhid analarının, canını Vətən yolunda fəda edənlərin ailə üzvlərinin də ən yaxın himayəçisi, dəstəkçisidir. 2016-cı ilin aprel döyüşlərindən sonra şəhid olan və yaralanan hərbçilərin ailə üzvləri, həmçinin yaxınları ilə Heydər Məscidində görüşən Mehriban xanım bildirib ki, qəhrəman döyüşçülərimiz Vətən qarşısında müqəddəs borclarını şərəflə yerinə yetiriblər. O, şəhid anaları qarşısında baş əydiyini dilə gətirərək, Azərbaycan xalqı və dövləti üçün hər bir vətəndaşın, o cümlədən əsgərlərimizin dəyərli olduğunu vurğulayıb: “Biz istəyirik ki, torpaqlarımız azad edilsin. Biz istəyirik ki, insanlarımız öz doğma yurdlarına qayıtsın. Biz işğalçı deyilik. Biz işğalçı ilə mübarizə aparan millətik. Bizim heç bir başqa millətin, başqa xalqın torpağında gözümüz yoxdur. Biz, sadəcə, öz torpaqlarımızı işğaldan azad etmək istəyirik. Bu həqiqəti bütün dünya bilir və artıq qəbul etməlidir. Ədalətsiz, işğalçı siyasətin qarşısını almaq üçün bizim qəhrəman ordumuz, qəhrəman övladlarımız var. Azərbaycan xalqı üçün hər bir əsgərimiz dəyərlidir və əzizdir. Dünyanın ən böyük sərvəti olan ömrünü Vətən naminə qurban verən hər bir övladımız Azərbaycanın tarixində qəhrəman kimi yaşayacaq”.





Aprel döyüşlərində iştirak etmiş bir qrup zabit və əsgərlə görüşündə isə Mehriban xanım Əliyeva bildirib ki, ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə yaralanmış, xəsarət almış əsgərlərimizin sağlamlığının bərpasına Azərbaycan dövləti xüsusi diqqətlə yanaşır. O, Vətən uğrunda vuruşan, yaralanan, xəsarət alan, sağlamlığını itirən hər bir hərbçinin tezliklə normal həyata qayıtması üçün Azərbaycan dövlətinin bütün lazımi addımları atmağa hazır olduğunu bəyan edib. Mehriban xanım Əliyeva Heydər Əliyev Fondu tərəfindən yüksək texnologiyalı protezlərlə təmin olunan hərbçilərlə keçirdiyi görüşdə də Azərbaycan uğrunda həyatını qurban verməyə hazır olan oğullarla fəxr etdiyini, onları özünə qardaş bildiyini dilə gətirib: “Belə əsgərlərlə, zabitlərlə, belə qardaşlarla biz, Qarabağı mütləq qaytaracağıq. Qarabağın hər bir kəndində, hər bir şəhərində Azərbaycan bayrağı dalğalanacaq”.

## İŞLƏDİLƏN HƏR BİR SÖZƏ MƏSULİYYƏTLƏ YANAŞMA

Vətən müharibəsindən sonra Mehriban xanım Əliyevanın işğaldan azad olunmuş ərazilərə davamlı səfərləri, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevlə birlikdə hərbçilər, müharibə veteranları, şəhid ailələri ilə görüşləri, Böyük Qayıdışın reallaşması çərçivəsində həyata keçirilən tədbirlər Azərbaycan dövlətinin gücünü, qüdrətini göstərməklə yanaşı, Birinci vitse-prezidentin ictimaiyyət qarşısında işlətdiyi hər bir sözə məsuliyyətlə yanaşdığını, xalqına sədaqətlə xidmətini ortaya qoyub. Onun vaxtilə şəhid anaları qarşısında səsləndirdiyi fikirlər indi yaşadığımız gerçəklikdir. Bu gün üçrəngli, ay-ulduzlu bayrağımız azad Qarabağın hər bir kəndində, şəhərində qürurla dalğalanır. İşğalda olduğu 30 ilə yaxın müddətdə xarabalığa çevrilən yurd yerlərimizə həyat yenidən qayıdır. Keçmiş məcburi köçkünlər mərhələ-mərhələ öz doğma el-obasına, ocağına dönərək xoşbəxt günlər yaşayırlar.

Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə ucalanların qisası alınmaqla yanaşı, onların xatirəsi daim hörmətlə anılır, uca tutulur, ailə üzvlərinin sosial qayğıları qarşılanır. Bütün bunlar gerçəklikdir və bu gerçəkliyin yaşanmasında Prezident İlham Əliyevin ən yaxın silahdaşına çevrilən, xalqın hakimiyyətə inamının möhkəmlənməsinə, ölkə rəhbərinin siyasi nüfuzunun daha da yüksəlməsinə əməli töhfələr verən Mehriban xanım Əliyevanın böyük payı var.

# Priqojinin ikinci sirli ölümü



"Vaqner"in təsisçisi Yevgeni Priqojinin də həlak olduğu bildirilən təyyarənin qəzaya uğramasının səbəbləri rəsmi olaraq açıqlanmır, araşdırmalar davam edir. KİV-in məlumatına görə, əsas versiya borta yerləşdirilmiş bombadır.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Bir müddət əvvəl Rusiyanın hərbi rəhbərliyi ilə qarşıdurma fonunda üsyana cəhd etməklə dünya mətbuatının diqqətini özünə cəlb etməyi bacaran "Vaqner"in təsisçisi Yevgeni Priqojinin adı yenidən beynəlxalq KİV-lərin manşetlərindədir. Bu dəfə müəmmalı ölümü ilə... Avqustun 23-ü axşam saatlarında Priqojinin olduğu təyyarə Tver vilayətində qəzaya uğrayıb. İş adamının sərnişinlər arasında olması faktını Federal Hava Nəqliyyatı Agentliyi açıqlayıb. Lakin Yevgeni Priqojinin qəza nəticəsində həlak olması hələlik rəsmən təsdiqlənməyib.

Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskovun sözlərinə görə, hələlik Priqojinin ölümünü təsdiqləyən ekspertizaların nəticəsi yoxdur. "Rusiya prezidentinin dünənki bəyanatını diqqətlə dinləsəniz, o, bütün lazımi müayinələrin, o cümlədən genetik müayinələrin aparılacağını söylədi. Rəsmi nəticələr hələ yoxdur. Onlar hazır olan kimi dərc ediləcək", – Peskov bildirib.

Qeyd edək ki, "Vaqner" liderinin 2019-cu ildə Konqoda qəzaya uğrayan təyyarədə öldüyü xəbəri yayılsa da, Priqojin üç gün sonra ortaya çıxmışdı.

### QƏZANIN İSTİNTAQI ONA TAPŞIRILDI

Təyyarə qəzasının araşdırılması Rusiya Federasiyası İstintaq Komitəsinin xüsusi mühüm işlərin araşdırılması üzrə baş idarənin müstəntiqi İvan Sibulaya həvalə olunub. Sibulanın təcrübəsinə yüksək profilli təyyarə qəzası hallarının araşdırılması daxildir. 2014-cü ildə Vnukovo hava limanında "Total" neft şirkətinin rəhbəri Kristof de Marjerinin ölümünə səbəb olan "Dassault Falcon 50EX" biznes reaktiv təyyarəsinin qəzaya uğraması, eləcə də 2019-cu ildə Şeremetyevoda 41 nəfərin ölümü ilə nəticələnən "SSJ 100" qəzasının araşdırılması da Sibulaya tapşırılmışdı.

Təyyarə qəzasının baş vermə səbəbləri ilə bağlı bir neçə rəsmi ehtimal mövcuddur. "Kommersant" yazır ki, avqustun 23-də axşam Yevgeni Priqojin döyüş yoldaşları ilə birlikdə Afrikaya növbəti səfərindən Sankt-Peterburqa qayıdırmış. Moskvadan iki təyyarə ilə havaya qalxıblar.



## TƏYYARƏNİN QƏZAYA UĞRAMASININ SƏBƏBLƏRİ...

"Flightradar 24" xidmətinin məlumatlarına əsasən, Priqojinin də olduğu iddia edilən təyyarə Moskva vaxtı ilə saat 17:46-da uçuş məlumatlarını ötürməyə başlayıb. Saat 18:10-da reaktiv təyyarə 28.000 fut (təxminən 8,5 kilometr) yüksəkliyə qalxıb.

Bu hündürlükdə uçuş saat 18:19-a qədər davam edib. Bir neçə dəqiqə ərzində "Embraer Legacy" enib və yenidən hündürlük qazanıb. Bir dəqiqə sonra isə, o, 30 saniyədə səkkiz min fut (2,4 kilometr) yüksəklik itirib. Sosial şəbəkələrdə yayılan videoda da görünür ki, yerə düşmək üzrə olan təyyarənin qanad və quyruğunun bir hissəsi yoxdur. İkinci təyyarə qəza yerinin üzərində dövrə vuraraq Moskvaya qayıdıb. İstintaq Komitəsi təhlükəsizlik və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması maddələri ilə cinayət işi açıb.

Rəsmi olaraq təyyarənin qəzaya uğramasının səbəbləri açıqlanmır, araşdırmalar davam edir. KİV-in məlumatına görə, əsas versiya borta yerləşdirilmiş bombadır. Digər fərziyyələr arasında texniki nasazlıq və hava hücumundan müdafiə sisteminin işə düşməsi göstərilir.

### PRİQOJİN KİMDİR?

Yevgeni Priqojin 1961-ci ildə Leninqradda anadan olub. Normal ailə ortamında böyüməsinə baxmayaraq, 18 yaşında oğurluğa görə iki il müddətinə həbs cəzası alıb. Azadlığa çıxdıqdan dərhal sonra yenidən "oğurluq", "quldurluq", "dələduzluq" maddələri ilə həbs edilir və bu dəfə cəzası daha ağır olur - 13 il. 1990-cı ildə Priqojin əfv olunduqdan sonra Leninqradda hot-doqlar satan ticarət zənciri təşkil edib. Biznesini böyüdən Priqojin böyük restoranlar şəbəkəsi qurur, 1996-cı ildə isə "Concord Catering" şirkətini açır. 1998-ci ilin yazında Sankt-Peterburqda fəaliyyətə başlayan "New Island" restoranı 2001-ci ildə Rusiya və Fransa prezidentləri Vladimir Putin və Jak Şirak üçün şam yeməyinə ev sahibliyi edib. 2010-cu ilin ortalarından etibarən Priqojinin şirkətləri Rusiyanın Müdafiə Nazirliyi ilə əməkdaşlığa başlayıb.

Priqojinin ən önəmli fəaliyyəti 2014-cü ildə əsası qoyulmuş özəl hərbi şirkət sayılan "Vaqner"in adı ilə bağlıdır. Bu qruplaşma hələ 2014-2015-ci illərdə Donbasda toqquşmalarda iştirak edib.



Dmitri Peskov

## UKRAYNADAKI İTKİLƏRDƏN SONRA QİYAMA APARAN YOL

2022-ci ildən başlayaraq Priqojinin rəhbəri olduğu "Vaqner" üzvləri Ukraynadakı qanlı hərbi toqquşmalara cəlb olunublar. Xüsusilə də Baxmut istiqamətində aylarla davam edən döyüşlərdə hərbi birləşmə minlərlə itki verib. Bu məsələdə günahı Rusiya Müdafiə Nazirliyinin rəhbərliyində gördüyünü bəyan edən Priqojin özəl hərbi birləşmələrin bu qurumun tərkibinə verilməsi nəzərdə tutan qərarın qəbulundan sonra üsyan bayrağını qaldırıb. Rostov vilayətini ələ keçirərək Moskvaya doğru irəliləyən Priqojin və dəstəsinin üsyanı Belarus prezidenti Aleksandr Lukaşenkonun vasitəçiliyi ilə 24 saat ərzində dayandırılıb. Bundan sonra "Vaqner" rəhbərinin fəaliyyəti bir növ kölgədə qalıb.

### "PRİQOJİN ÇƏTİN TALEYİ OLAN İSTEDADLI İŞ ADAMI İDİ"

Rusiya Prezidenti Vladimir Putin də "Embraer" təyyarəsinin qəzaya uğraması nəticəsində ölənlərin ailələrinə başsağlığı verib. "Priqojin çətin taleyi olan və istedadlı iş adamı idi", - Putin deyib. Onun sözlərinə görə, Priqojini 1990-cı illərin əvvəllərindən tanıyırdı. "O, çətin taleyi olan bir insan idi və həyatda ciddi səhvlərə yol verdi. O, özü üçün lazım olan nəticələrə nail oldu. O, istedadlı insan, iş adamı idi", - Putin bildirib. Rusiya prezidentinin sözlərinə görə, avqustun 23-də naməlum şəraitdə Tver vilayətində qəzaya uğrayan təyyarənin sərnişini kimi qeyd edilən "Vaqner"in təsisçisi tək Rusiyada deyil, xaricdə, o cümlədən Afrikada da işləyib və burada qiymətli metallar və daşlarla məşğul olub.

# ANAHİTİN YİYƏSİZ NƏVƏLƏRİ

Xankəndidə Araik Arutyunyanın rəqibləri Ruben Vardanyanın "dirənişi"ndən güc alaraq "hakimiyyət"i devirmək istəyirlər. Ciddi şəkildə inanırlar ki, xuntanın başındakı simalar dəyişərsə, vəziyyət düzələr.





RÜSTƏM QARAXANLI

Ümidləri sabun köpüyü kimi puç olan ermənilərin, xüsusilə də separatçı qismin daxilində gözlənilən didişmələrə start verilib. Xankəndidəki xunta təmsilçilərinin taleləri ilə barışığa getmək üçün geniş seçim imkanları yoxdur. Gəmini adəti üzrə ilk olaraq siçovullar tərk edir. "Artsax" gəmisinin sükan tutanları isə təminatlı yollar axtarışındadırlar. İki istiqamət var - biri Laçına, digəri Ağdama doğru. Hər iki yolun sonu Bakıda həbsxanada bitir.

### SƏKKİZ ƏSRİN MƏNTİQİ SONU

Ermənilər saxta dəlillər üzərində yazdıqları tarixin tələsinə düşüblər. Müstəqil Ermənistanı və Qarabağdakı oyuncaq rejimi son 800 ildə ilk "dövlət" quruluşları hesab edən erməni xalqı tarixinin növbəti deja-vüsünü yaşayır. Səkkiz əsr bundan öncə hansı "dövlət"ləri olub, mübahisəli məsələdir. Bir balaca realist olsaydılar, anlayardılar ki, bu uzun zaman kəsiyində özlərinə dövlət qura bilməyiblərsə, deməli, bunu bacarmırlar. Əfsanə və miflərdəki "dövlət"lərlə, əslən heç erməni olmayan, Diyarbəkirdən Ağdamdakı Şahbulağadək hər küncdə bir "şəhər salan" Tiqran barədə rəvayətlərlə, müqəddəs kitablardan möcüzəvi əhvalatlar çırpışdırıb "tarix" yazmaqla çox getmək olmur, uzağı 30 il, onun da sonu tragikomediya.

Xankəndidə Araik Arutyunyanın rəqibləri Ruben Vardanyanın "dirənişi"ndən güc alaraq "hakimiyyət"i devirmək istəyirlər. Ciddi şəkildə inanırlar ki, xuntanın başındakı simalar dəyişərsə, vəziyyət düzələr. Araik isə partiyasının dili ilə bəyan edir ki, onu "xalq seçib". Bu yerdə erməni təbliğatının 30 illik daha bir şousu süquta uğrayır. Demirdilər, "Artsax"da demokratiya var və Azərbaycan onu boğmaq istəyir? Bu da "demokratiya"nın sonu: rəqibləri Araikə üç il əvvəl necə "seçildiyini" xatırladırlar - kütləvi saxtalaşdırma, təqib və qorxutma, ələ alma, administrativ resurslardan istifadə. Bu köpük də belə partladı.

Ermənilər min rola girə və müxtəlif sifətlərə düşə bilərlər. Ancaq bir sevimli adətlərindən imtina edəsi deyillər: özlərini təriflәmək, yeri və göyü yaratdıqlarını iddia etmək. "Biz minillər boyu yaşayan millətik. Biz dünyaya sivilizasiya bəxş etmişik, biz xristianlığın elçiləri olmuşuq. Biz dünyaya çox şey vermişik və çox şey də tələb edə bilərik", - deyə vaxtilə Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisinin müavini olmuş Vladimir Poqosyan üsyan edir.

## YAPONİYA, CƏNUBİ KOREYA VƏ... ERMƏNİSTAN

Məğlubiyyətsonrası ümummilli şizofreniya başqa formalarda da təzahür edir. Separatçıların "qılınclarının hər iki tərəfinin kəsdiyi" illərdə "xarici işlər nazirinin müavini" işləmiş və xuntanın "intellektual" qanadının mənsubu sayılan Raçya Arzumanyan ümumxalq iflasının alternativ səbəbini tapıb: milli burjuaziyanın və oliqarxiyanın xəyanəti. Arzumanyan yazır (səbirlə oxuyaq - müəllif): "Erməni xalqının parçalanması sırf maliyyə-iqtisadi amillərə görə baş verir. Ayırıcı xəttin bir tərəfində oliqarx ailələr, digər üzdə erməni xalqı durur. Sırf təsadüf nəticəsində oliqarxiya sisteminin əsasını indi Ermənistanın və "Artsax"ın başında olan postsovet dövrünün birinci şəxsləri, güc strukturlarının rəhbərləri təşkil edirlər. Biz milli strategiyamızı elə qura bilərdik ki, oliqarxiya probleminin həllini XXI əsrə adaptasiya etmək mümkün olsun. Məsələn, necə ki, bu yolu İkinci Dünya müharibəsindən sonra Yaponiya, Cənubi Koreya keçiblər". Fikir verdiniz, müəllif sərhədləri hələ də başqa dövlətin əsgərləri tərəfindən qorunan ölkəsini ən azı Yaponiya və Cənubi Koreya ilə müqayisə edir.



## "BU ZAMAN MÜTLƏQ YETİŞƏCƏK"

Separatizm hərəkatının öndə duran isimlərindən olmuş, bir neçə il öncə o biri dünyaya "səfər"ə yollanmış İqor Muradyan ermənilərin içində az-çox ağlı başında olan siyasi xadimlərdən biri idi. O, 2016-cı ilin aprel döyüşlərindən düzgün nəticə çıxararaq hələ 2017-ci ildə, Paşinyan hakimiyyətə gəlməmişdən bir il öncə həyəcan təbili çalırdı: "Ermənilərin beyni belə işləyir. Nəyisə düzəltmək mümkün deyil. Nəyisə dəyişmək üçün gərək başlarına vurasan. Başlarına isə dəyəcək, özü də yaxşı dəyəcək. Bu, gözləniləndir. Azərbaycanın imkanları və bacarığı var. Azərbaycan öz zamanını gözləyəcək və bu zaman mütləq yetişəcək".

### "İFFƏTLİ ANADAN" BAŞLAYAN TARİX

XIX əsrin ikinci yarısı - XX əsrin əvvəllərində yaşamış italiyalı psixiatr Çezare Lombrozonun "Dahilik və dəlilik" kitabında erməni xalqının ilahəsi Anahitə olan sevgisi barədə yazdıqlarını çoxumuz oxumuşuq. Lombrozo yunan filosofu Strabona istinad edir: "Ermənistanda məbədi Babildəki Melitta məbədini xatırladan Anaisi (Anahit) fahişəlik tanrısı sayırdılar".

Kuba inqilabının lideri Fidel Kastro vaxtilə etiraf edirdi ki, kubalı qadınlar ölkə büdcəsinə valyutanın daxil olması üçün bir iqtisadi faktordurlar. Açıq şəkildə. Ermənilər isə Anahitin fəaliyyətini fərqli təqdim edirlər, daha bir "dövlət xadimi", çar Trdatın dili ilə: "Xalqımızın şöhrət mənbəyi, həyat bəxş edən, iffətli ana, böyük və cəsur Aramazdın qızı". Gördünüz? Əsas təqdimatdır.

# "Coffee N Joy" "Goalplus"un layihəsini dəstəklədi



"Coffee N Joy" markası "Goalplus"un təşkilatçılığı ilə "Gənclər və İdman Festivalı 2023" layihəsinə dəstək verib. Gənclərin iştirak etdiyi bu idman tədbirində voleybol, stolüstü tennis, gimnastika və futbol yarışları təşkil edilib.

Məlumat üçün bildirək ki, 60 gün davam edən bu proqrama 15 mindən çox iştirakçı qatılıb. Müxtəlif sosial yönümlü layihələrə dəstək verən "Coffee N Joy" markası tədbirin keçirildiyi müddətdə iştirakçıları ləziz qəhvə çeşidlərinə qonaq edib.

Qeyd edək ki, "Coffee N Joy" damaq dadını oxşayan müxtəlif qəhvə çeşidi ilə qəhvəsevərlərin sevimli markasına çevrilib.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi





# “RƏQQAS”IN “SÜLH GÖYƏRÇİNİ”NƏ ÇEVRİLMƏSİ

Ermənistan hərbi-siyasi rəhbərliyi BMT Təhlükəsizlik Şurasında düşdüyü acınacaqlı vəziyyətdən çıxmaq üçün yollar axtarır. Baş nazir Nikol Paşinyanın birdən-birə ölkəsinin 1990-cı ildə qəbul edilmiş “müstəqillik bəyannaməsi”ni tənqid etməsi də bu kontekstdə qiymətləndirilə bilər.

**FUAD ABASOĞLU**

Avqustun 16-da Nyu-Yorkda BMT Təhlükəsizlik Şurası(TŞ) erməni tərəfinin israrlı tələbi ilə Azərbaycanın Qarabağ bölgəsində “humanitar böhran”ı müzakirə etmək üçün iclas çağırdı. Amma bütün dünyaya Qarabağ ermənilərinin acından qırıldığı, Azərbaycanın soyqırımı siyasəti yürütdüyü barədə car çəkən erməni siyasi elitasının arzusu qursağında qaldı. Ermənilərin gözlədiyinin tam əksinə olaraq, iclas adi qaydada keçdi. Heç bir sənədin qəbul edilməməsi Azərbaycanın diplomatik qələbəsindən xəbər verdi. Eyni zamanda, dünya ictimaiyyətinin artıq ermənilərdən bezdiyi, erməni təbliğat maşınının əvvəlki kimi işləmədiyi bir daha sübut olundu. Elə erməni müxalifəti də bu iclası Paşinyanın üzünə vurulan tərs şillə kimi xarakterizə etdi.

BMT-dəki biabırçı uğursuzluqdan sonra Paşinyan, deyəsən, siyasi kursuna dəyişiklik etmək qərarına gəlib.

### ERMƏNİSTANIN “MÜSTƏQİLLİK BƏYANNAMƏSİ” DƏYİŞDİRİLİR?

O, 23 avqust 1990-cı ildə Ermənistan SSR Ali Soveti tərəfindən qəbul edilən “müstəqillik bəyannaməsi”ni tənqid edib. Sözügedən bəyannamədəki bəndə əsasən, Qarabağ Ermənistanın ərazisi sayılır. Bu isə günümüzdə istər 2020-ci il müharibəsindəki Ermənistanın məğlubiyyəti, istərsə də regionda dəyişən geosiyasi reallıq baxımından nə Ermənistana, nə də Paşinyana sərf edir. Onun bu çıxışı erməni müxalifətinin də nəzərindən yayınmayıb. Tiqran Abramyan, Qaqik Tsarukyan kimi müxaliflərlə yanaşı, Qarabağdakı separatçı rejimin tör-töküntüləri də Paşinyanın “təbrik”inin mürəkkəbi qurumadan ağız-ağıza verərək tənqidlərə başlayıblar. Görünən odur ki, artıq erməni siyasi elitası reallığı dərk edir. Tezliklə, müxalifətin ehtimalına görə isə, sentyabr ayından Paşinyan bəyannamənin dəyişdirilməsi ilə bağlı düyməyə basa bilər. Dəyişiklik isə ermənilərin Qarabağla bağlı iddialarının tamamilə aradan qaldırılması deməkdir. Müxalifət bunu gözəl anlayır. Bu səbəbdən də sentyabrda kütləvi aksiyalara start verməyi planlaşdırır. Son günlər aktivləşən kilsənin dəstəyinə bel bağlayan müxalifət İrəvan şəhərində yaxın günlərdə keçiriləcək meriya seçkilərinə də fokuslanıb. Müxalif düşərgənin bəzi təmsilçiləri hesab edirlər ki, bu seçkilərdə müxalifətin qələbəsi Paşinyanı devirmək və revanş üçün yol aça bilər. Müxalifətin bəzi hissəsinin fikrinə görə isə, bu seçkilərdə Paşinyanyönümlü qanadın qələbəsi İrəvanı da Azərbaycana təhvil vermək üçün hazırlanan planın tərkib hissəsi olacaq.

## PAŞİNYANI QƏFİL “SÜLH GÖYƏRÇİNİ”NƏ ÇEVİRƏN SƏBƏBLƏR



Paşinyan təbrikində qeyd edib ki, sülh əldə olunmasa, SSRİ ruhu Ermənistan səmasında uçmağa davam edəcək. Baş nazir etiraf edib ki, müharibədən sonra bəyannaməni oxuyarkən mütaliəsi başqa mənzərə canlandırıb. Nikol 1990-cı ildə qəbul edilən bəyannamənin Ermənistanı region dövlətləri ilə qarşıdurma vəziyyətində saxlayan, əslində müstəqilliyi itirməyə doğru atılan addım kimi qiymətləndirib. Bir vaxtlar Şuşada yallı gedən, “Qarabağ Ermənistandır” deyən Paşinyanı bu gün reallığı dərk edərək bu tip bəyanatlar verməyə vadar edən səbəblər var. BMT-dəki uğursuzluq, kilsənin açıq şəkildə ona qarşı çıxması, Azərbaycanla İran arasında münasibətlərin getdikcə normallaşması Paşinyanı “sülh göyərçini”nə çevrilməyə vadar edir. Artıq erməni siyasi elitası dərk edir ki, sülh müqaviləsi imzalamaqdan başqa çıxış yolu qalmayıb. Bu sıraya eyni zamanda Zəngəzur dəhlizinin açılmasını da əlavə etmək olar. Eyni anda nəzərə almaq lazımdır ki, baş nazir son illərdəki səriştəsiz siyasəti ilə həm Qərbi, həm də Rusiyanı narazı salıb.

## NİKOLUN ERMƏNİSTANINDA PAYIZ GƏRGİN KEÇƏCƏK



Nikolun Ermənistanın müstəqillik bəyannaməsini tənqid etməsi ilk deyil. Bundan əvvəlki illərdə də baş nazir “təbrik”lərində bəyannaməni tənqid etmişdi. Bu dəfə isə onun bəyannaməni dəyişdirmək üçün özündə qətiyyət gördüyü sezilir. Erməni müxalifəti isə sentyabr ayından başlayaraq, hökumətə göz verib işıq verməyəcəyini vəd edir. Müxalifətin aktivləşməsi, “Gallup” sorğularının nəticələri Ermənistandakı vəziyyətin nə dərəcədə acınacaqlı olmasından xəbər verir. Artıq region yeni geosiyasi reallıqlara qədəm qoyur. Başqa yolu qalmayan Paşinyan ya quzu kimi Azərbaycanın qətiyyətli mövqeyinə tabe olub sülh danışıqlarını sürətləndirərək sənədi imzalayacaq, ya da dəmir yumruğu yenidən hiss edəcək. Bu isə səfalət içində çalxalanan erməni dövlətçiliyinin sonu ola bilər...

PEŞƏKAR Kaspi 26 AVQUST ŞƏNBƏ 2023 9

UZAQ KANADADAN BAKIYA GƏLƏN REJİSSOR KƏNAN MƏMMƏDOV XATİRƏLƏRİNİ BÖLÜŞÜR

# "HEÇ ZAMAN ÖZÜMÜ BİR REJİSSORA BAĞLAMAMIŞAM"






**Kənan Məmmədov:** "Mənim üçün işıq, texnika artıq geridə qalıb. Operator gərək bu texniki işləri o səviyyədə bilsin ki, o barədə fikirləşməsin. Heç vaxt düşünməmişəm ki, hansı kamera ilə çəkəcəm, hansı işıqdan istifadə edəcəyəm?"



Ad günü", "Bağlı qapı", "Qaçaq Nəbi", "Atları yəhərləyin", "Fəryad", "Evin kişisi", "Qızıl uçurum", "Otel otağı", "Gecə qatarında qətl", "İstanbul reysi", "Küçələrə su səpmişəm", "Sübhün səfiri" kimi neçə-neçə Azərbaycan kinosu incisinin ekrana gəlməsində quruluşçu operator kimi onun böyük əməyi və sənətinin izi var. "Əliyevin Əli", "İlham Əliyev. Diplomatiyada uğur rəmzi", "Kəngərlilər", "Qara Qarayev-60" kimi onlarla bioqrafik və sənədli filmlərin operatoru kimi adını Azərbaycanın sənədli film tarixinə də yazdırıb.

İndi uzaq Kanadada yaşasa da, Bakıdakı dostlarını, həmkarlarını unutmur. Ara-sıra Vətənə gəlir. Kino çəkmək həvəsi isə onu heç vaxt tərk etmir.

Azərbaycan Respublikasının Əməkdar İncəsənət Xadimi, Dövlət Mükafatı laureatı Kənan Məmmədov Bakıda olduğu günlərdə vaxt ayırıb "Kaspi"yə müsahibə də verdi.

### ONLAR HAMISI GETDİLƏR...

**● Kənan müəllim, müsahibə üçün görüşü "Azərbaycanfilm" kinostudiyasının qarşısına təyin etməyiniz sizin üçün nostaljidir?**

● Yaxşı sualla başladınız (gülür). Müəyyən dərəcədə belə də düşünmək olar. Bu məkan mənim üçün çox əzizdir. Burada 45 il can qoymuşam. Demək olar ki, həyatımın ən yaxşı dövrü burada keçib. Mən kinostudiyaya gələndə bu məkan yox idi, sonra tədricən düzəltdilər. Buradan sanki enerji alırsan. Bu kinostudiyada 50-ə yaxın film çəkmişəm. Onlardan 28-i bədii filmdir. Sənədli filmlə də həvəslə məşğul olmuşam. Hesab eləmirəm ki, yaradıcılıq işi sayla ölçülür. Amma bu da müəyyən dərəcədə onu göstərir ki, mən fəal işləmişəm. Filmlərin bədii tərəfi insanların tələblərinə, istəklərinə nə qədər cavab verir, əsas budur. Son çəkdiyim film "Axırıncı dayanacaq" oldu. O filmi 2014-cü ildə çəkdim. Ondan əvvəl Ramiz Mirzəyevlə "Sübhün səfiri"ni ekranlaşdırdıq. Bu filmdə baş rolu Rasim Balayev oynayır. Bunlar mənim axırıncı filmlərim olub.

**● Niyə "axırıncı" deyirsiniz? Bəlkə hansısa bir möcüzə baş verəcək, yenə dəvət olacaq, ya özünüz hansısa filmi çəkmək istəyəcəksiniz?**

● Mən bir operator kimi realistəm. Hər şeyə açıq göz və açıq düşüncə ilə baxıram. Möcüzələrə inanmıram. Halbuki sizin sözünüzdə müəyyən əsas var. Amma mən buradan getdim. Qalsaydım, siz deyən baş verərdi. Mənim üçün problem o oldu ki, çalışdığım, işlədiyim insanlar dünyalarını dəyişdilər. Rasim Ocaqovla dörd film çəkmişəm. Sonuncu film "Otel otağı" idi. Mənə deyirdi ki, səninlə reallaşdıracağım bəzi düşüncələrim var, amma alınmadı, xəstələndi. Tofiq Tağızadə, Şamil Mahmudbəyov, Eldar Quliyev - bu rejissorlar korifeylərdir. Mən bu insanlarla çalışmışam. Onlar hamısı getdilər... İndiki cavanlarla işləmək mənim üçün çətin olardı. Ona görə möcüzə baş verməsindən ötrü gərək yaradıcı insanlar olsun. Elə bir möcüzə baş versə və mənə desələr ki, belə bir film var - çəkərəm. Sizi inandırıram, müəyyən yaradıcı xətt var ki , ondan aşağı da düşə bilmərəm. Düzdür, texnologiyalar dəyişib. Mənim işlədiyim dövr tam fərqli idi - lent dövrü idi. İndi bunların hamısı rəqəmsaldır. Hərçənd mən rəqəmsal formatda da iki film - "Sübhün səfiri" və "Axırıncı dayanacaq" filmlərini çəkmişəm. Bu nöqteyi-nəzərdən mənim üçün problem yoxdur. Amma reallıq göstərir ki, artıq zaman keçib. Yoldaşım deyir ki, sən nə vaxta qədər film çəkəcəksən, bir az otur, istirahət elə...

> *"O film ki, birmənalı qarşılanır, demək alınmayıb. Filmdə gərək müxtəlif fikirlər olsun. Demək film nəyəsə toxunub ki, insanlar onu müzakirə edir."*

### KİNONUN "QIZIL" DÖVRÜ

**● Avqustun 2-i Milli Kino Günü keçirildi. Bakıya gəlişiniz o tarixə təsadüf etdi, yoxsa qabaqcadan planlaşdırılan səfərdir?**

● Əgər desəm ki, təsadüf idi, yalan olar. Təbii ki, mən Kinostudiyanın 100, Azərbaycan kinosunun 125 illiyinin olmasından xəbərdar idim. Düşündüm ki, burada olmalıyam. Burada görüşlərim var. Köhnə dostlarla, mənim kimi sağ qalan kino adamları ilə görüşürəm.

**● Və kinomuzun qızıl dövrünü xatırlayırsınız...**

● Mən həqiqətən Azərbaycan kinosunun qızıl dövründə çalışmışam. Bu mənada bəxtim gətirib. 1976-cı ildə Moskva Kinematoqrafiya İnstitutunu bitirib gəldim və ilk filmim "Ad günü" oldu. Bu filmdə ikinci operator kimi çalışdım. 1978-ci ildə Tofiq Tağızadə ilə "Evin kişisi" filmini çəkdim. Bununla da yol açıldı, bir-birinin ardınca çəkilişlər başladı. İnanın ki, ailəmlə birlikdə istirahətə getməyə vaxtım yox idi. İllər keçdi... İndi 76 yaşım var, yaşlı adamam, amma özümü gümrah hiss edirəm.

### AKTYORLA MÜNASİBƏT QURMALISAN Kİ...

**● Adətən deyirlər, böyük aktyorların böyük "kaprizləri" də olur. Onlarla işləmək çətin idi?**

● Bu günlərdə Rasim Balayevin 75 yaşını qeyd etdik. Ona dövlət tərəfindən də mükafat verildi. Rasim bütün mükafatlara layiqdir. Həm də gözəl insandır. Mən onu hələ cavanlıqda bir çox filmdə çəkmişəm.

Fəxrəddin Manafov - böyük aktyordur. Onu kinoya Rasim Ocaqov gətirib. Fəxrəddini bir sıra filmlərdə mən çəkmişəm.

Həmidə Ömərovanın ilk filmi "Qızıl uçurum" oldu. Moskvada institut qurtarıb gəlmişdi.

Fuad Poladov mənim çox yaxın dostum idi. Onu bir neçə filmdə çəkdim. Amaliya Pənahovanı da filmlərdə çəkmişəm. Mən bu aktyorlarla ilk növbədə dost olmuşam. Dostluq münasibəti olmasa, çəkiliş alınmaz. Məsələn, "Təhminə" filmində Zaur roluna Moskvadan gələn aktyor çəkiləcəkdi. Nə mən, nə Rasim Ocaqov onunla yaxınlıq edə bildik. Ocaqov onu filmdən çıxardı. Aktyorla münasibət qurmalısan ki, onu çəkə biləsən. Sofa Bəsirzadə, Barat Şəkinskaya mənim xətrimi çox istəyərdilər. Barat xanımı "Evin kişisi"ndə çəkmişdim. İndi onların adlarını çəkəndə kövrəlirəm...

### DRAMATURJİ MATERİAL OLMASA

**● Bir çox operatorlar düşünürlər ki, ən vacib şey kameradır və əlinə alan kimi şah əsəri çəkə biləcəklər. Siz kadrın yaranmasında ilk yerə hansı elementi qoyursunuz: işığı, kompozisiyanı, əhval-ruhiyyəni...?**

● Mənim üçün işıq, texnika artıq geridə qalıb. Operator gərək bu texniki işləri o səviyyədə bilsin ki, o barədə fikirləşməsin. Heç vaxt düşünməmişəm ki, hansı kamera ilə çəkəcəm, hansı işıqdan istifadə edəcəyəm? Mənim üçün əsas olan dramaturji material, ssenaridir. Əgər ssenari məni qane edibsə, bir insan kimi onu hiss etmişəmsə, işləmişəm. Çünki film onunla formalaşır. Dramaturji material olmasa, heç bir film tamaşaçını özünə cəlb edə bilməz. Rejissor mənə iş təklif edəndə ssenari istəyirdim. Rasim Ocaqovla ilk filmim "Özgə ömür" olub. Baş rolda Kalyaqin oynayırdı. Bir gün evdə oturmuşdum. Qapı döyüldü. Filmin müdiri Aydın İmrani idi: "Bu ssenarini Rasim Ocaqov göndərdi, dedi oxusun, sabah səhər 10-da onu gözləyirəm" dedi. Bütün gecəni o ssenarini oxudum. Rüstəm İbrahimbəyovun ssenarisi idi. Çox xoşuma gəldi. Rasim çox dəqiq adam idi. Səhəri gün saat 10-da otaqda oldum.

**● SSRİ dövründə olub ki, operatorlar bəzən bir rejissor və ya eyni komanda ilə işləyiblər. Sizin filmoqrafiyanıza baxanda bu fərqlidir...**

● Bəli, elə operatorlar olur ki, yalnız bir rejissorla işləyirlər. Amma bu, uzun müddət çəkmir. Çünki kino yaradıcı prosesdir, digər tərəfdən, istehsalatdır. Bunun da öz tələbləri var. Bu, məndə sistemə çevrilməyib. Heç zaman özümü bir rejissora bağlamamışam. Məsələn, Azərbaycan rejissorlarını götürsək, mən ən çox Rasim Ocaqovla işləmişəm, onunla dörd bədii film çəkmişəm. Eldar Quliyevlə, Əbdül Mahmudovla, Ənvər Əblucla da bir neçə filmdə işləmişəm.

### OPERATORA ƏHSƏN!

**● 28 bədii film... "Hansını daha uğurlu hesab edirsiniz?" sualına cavab vermək, yəqin ki, sizin üçün çətin olar...**

● Bəli, bu suala cavab vermək çətindir. Qoy bunu tamaşaçı desin. Amma Ənvər Əblucun "Qara gölün cəngavərləri" filmi var. Bu, mənim üçün önəmli filmdir. Rəssam Rufiz İsmayılovla o filmdə çalışırdıq. Keçən əsrin əvvəllərinin inqilabi hərəkatı, Abşeronun simasını ekranda yaratmaq, Bakı ətrafındakı mədənləri canlandırmaq, o abı-havanı ekrana gətirmək çox mühüm məsələ idi. O dövrdə ki, mən işləmişəm, bizim texniki imkanlarımız çox məhdud olub. O vaxt film lentə çəkilirdi. O filmin səsyazması o vaxt Leninqradda olub. Orada bir kadr var: polislər qəhrəmanı tutmaq üçün fəhlələrin olduğu baraka girirlər. O epizod bir kadrla çəkilib. Ənvər Əbluc deyirdi ki, o epizod səsləndiriləndə Leninqrad aktyorları "operatora əhsən" deyə alqışlayıblar.

"Qaçaq Nəbi" filmi də çox çətin şəraitdə çəkilib. "Təhminə" möhür vurulmuş filmdir. Filmin çəkiliş proseslərində Rasim Ocaqov ürəyindən əməliyyat olundu. Fəxrəddin Manafov qəzaya düşdü. Təhminə rolunu oynayan Meral Konrat mədəsindən əməliyyat olundu. Rasim dedi ki, Kənan, biz üç nəfər bu vəziyyətə düşdük, dördüncü sənsən, əgər sənə də bir şey olsa film qaldı...






Fotolar: Rüfət Mikayılov / Global Media Group

### QALSAYDIM, YENƏ ÇƏKƏCƏKDİM

**● Amma film alındı. Böyük səs-küy yaratdı. Birmənalı da qarşılanmadı...**

● Bəli, elədir. O film ki, birmənalı qarşılanır, demək alınmayıb. Filmdə gərək müxtəlif fikirlər olsun. Demək film nəyəsə toxunub ki, insanlar onu müzakirə edirlər. Mənim üçün çox yaxın "Fəryad" filmi olub. Bu film "Təhminə"dən dərhal sonra çəkilib. Rəhmətlik Ceyhun Mirzəyev dostum idi. Ona çoxdan söz vermişdim ki, film çəkəcəyik. Həmişə mənə film təklif edəndə məşğul olurdum. Bir gün "Fəryad"ın ssenarisi ilə gəldi. Materialı oxudum, əhəmiyyətli olduğunu başa düşdüm. Qarabağ savaşı haqqında faktiki birinci filmdir. Biz filmi çəkdik. Amma Ceyhun heç filmin qaralama montajını da görmədi. Filmi səsləndirən Eldəniz Rəsulovdur. O Ceyhunu elə yamsılayırdı ki, Ceyhun filmə baxsaydı elə bilərdi ki, özü səsləndirib.

### NƏ YAXŞI Kİ, XATİRƏLƏR VAR...

**● Yəqin ki, maraqlı və zəngin arxiviniz var, xatirələriniz də daim sizi müşayiət edir...**

● Böyük arxivim var. Bəzi fotoları və materialları Kinofonda verdim. İndi orada böyük bir stendim və arxivim var. Onlar böyük bir sevgi ilə arxivi qoruyurlar. İnsan gəlib elə bir yaşa çatır ki, ən böyük vergi xatirlərdir. Hərdən otururam, yadıma düşür. Moskvada Aleksandr Qalperin emalatxanasında oxuduğum illər... Mən Moskva dövrüm haqda bir kitab yaza bilərəm. Bəli, nə yaxşı ki, xatirələr var. Xatirələr bizi saxlayır. Bizi sanki qabağa aparır. Biz həyatımız haqqında düşünürük.

**● Siz niyə Kanadaya getdiniz? Fikirləşdiniz ki, artıq sizin rejissorlarınız, aktyorlarınız yoxdur? Yəni, artıq filmin sonudur?**

● Mənim Kanadaya köçməyim kino ilə bağlı deyil. Qızım ailəsi ilə Kanadaya köçdü. Mən ona çox bağlıyam. Onsuz yaşaya bilmirəm. Digər tərəfdən, 2014-cü ildən bu yana mən hiss elədim ki, çalışdığım insanlar dünyalarını dəyişiblər. Burada kimlərlə işləyim? Bu problem qarşımda var idi, amma əsas deyildi. Qalsaydım, yenə film çəkəcəkdim.

**● İnsanın arzuları heç vaxt tükənmir. "Daha ürəyimdə heç nə qalmadı" desə belə. Əgər imkan olsa nə çəkərsiniz?**

● Mən istərdim bir film çəkəm: böyük bir şəhərdə lirik bir mövzu. Ruslardakı kimi "O və o". Sevgi mövzusu. Məhəbbət hissini bu nəhəng şəhərdə realizə etmək istərdim. Bu mövzu məni çox maraqlandırır. Belə bir ssenari olsa, elə bu saat belə çəkərdim...



# Vaşinqtonun "MİNİ NATO" PLANI

ABŞ, Yaponiya və Cənubi Koreya vahid hərbi blok yaratmaq istiqamətində irəliləyirlər. Bu üç ölkənin Çinə qarşı yeni hərbi birlik - "mini NATO" yaradacaqları ehtimalı var. Çin hesab edir ki, yeni hərbi birlik yaradılsa, bu, regiona dağıdıcı təsir göstərməklə yanaşı, yeni münaqişələrə də səbəb olacaq.



AZƏR NURİYEV

Həftəsonu dünyanın diqqəti Birləşmiş Ştatlar prezidentlərinin dünyaca məşhur iqamətgahı olan Kemp-Devidə yönələcək. Ağ Evin sahibi Cozef Bayden, Yaponiyanın baş naziri Fumio Kişida və Cənubi Koreya prezidenti Yun Suk El arasında görüşdə yeni hərbi birliyin yaradılması ətrafında müzakirələrin aparılacağı xəbərləri gündəmi tutub. ABŞ təkzib etməyə çalışsa da, üç ölkənin Çinə qarşı yeni hərbi birlik - "mini NATO" yaradacağı vurğulanır. Məhz buna görə görüş əhəmiyyətli hesab olunur. Bəllidir ki, Vaşinqton Şərqi Asiyada qeyri-rəsmi üçtərəfli ittifaq üçün daimi qurumlar yaratmaq niyyətini çoxdan ortaya qoyub. Üç ölkə bir-birini müdafiə etməyi öhdəsinə götürməsə də, bu, onların orduları arasında qarşılıqlı əlaqəni gücləndirəcək. Şübhəsiz ki, ilk növbədə hədəfdə Çin və Şimali Koreyadır (KXDR). Bayden tərəfdaşlarına Ukraynaya daha çox hərbi yardım üçün də təzyiq edəcək.

**MEHRİBAN DÜŞMƏNLƏR**

Bayden administrasiyasının nöqteyi-nəzərindən əsas problemlərdən biri ABŞ-nin Asiyadakı iki müttəfiqi - Yaponiya və Cənubi Koreya arasında yaxınlaşmanı gücləndirməkdir. Bu, Vaşinqtonda qeyd edildiyi kimi, seysmik miqyasların dəyişməsinə bərabərdir. Axı Tokio və Seul uzun onilliklər ərzində bir-birilərinə güvənməyib, üstəlik, açıq şəkildə qarşılıqlı ittihamlar irəli sürüblər. Yaponiyanın Koreya üzərində 35 il davam edən müstəmləkə hökmranlığını da qarşı tərəf unutmayıb. Koreya Respublikası ötən həftə 1945-ci ildə Yaponiya hökmranlığından qurtuluş gününü qeyd edib. Tədbirlərdə Cənubi Koreya prezidenti "müstəmləkə hakimiyyətinin vəhşiliyinə" və Koreya xalqının əzablarına diqqət yetirməyib. Əvəzində Cənubi Koreya lideri Yaponiyanın indi ölkəsi ilə eyni dəyərlərə sadiq olan tərəfdaş olduğunu vurğulayıb. Həm Seul, həm də Tokio KXDR-dən gələn nüvə təhlükəsindən narahat olduqlarını dilə gətiriblər.

## YAPONİYA VƏ CƏNUBİ KOREYA ÜÇÜN TƏHLÜKƏ?

Çinin "Global Times" nəşri yazır ki, Kemp-Devid sammiti Yaponiya və Cənubi Koreya üçün təhlükəli ola bilər: "ABŞ, Yaponiya və Cənubi Koreya hərbi ittifaq kimi təhlükəsizlik blokuna doğru irəliləyir? Xeyr. Vaşinqtonun "qlobal təchizat zəncirinin qurulması" üçün genişləndirilmiş planları var. "Soyuq müharibə" Asiya-Sakit Okean regionuna öz kölgəsini çəkməyə başlayıb". Bəzi analitiklər hesab edirlər ki, bu sammit ABŞ, Yaponiya və Cənubi Koreya arasında üçtərəfli hərbi əməkdaşlıq sisteminin qurulmasının başlanğıcı olacaq.



Dennis Vilder

**KEMP-DEVİD SAMMİTİ MÖCÜZƏDİR**

Corctaun Universitetinin professoru və ABŞ prezident administrasiyasının keçmiş rəsmisi Dennis Vilder Kemp-Devid sammitinin möcüzə olduğunu deyib: "Axı əvvəllər amerikalılar çətin ki, Yaponiya və Cənubi Koreya liderlərini bir otağa cəlb edə bilərdilər. İndi də Seul-Tokio xətti boyunca münasibətlərin yaxşılaşdırılmasının təşəbbüskarı Cənubi Koreya və Yaponiya özləri olublar. Ancaq hər iki ölkənin lideri bunun üçün bədəl ödəyə bilər. Yaponiya və Cənubi Koreya vətəndaşlarının iki ölkənin yaxınlaşmasına müsbət yanaşdığına dair heç bir sübut yoxdur. ABŞ-də vəziyyət daha ciddidir. 80 yaşlı Bayden 2024-cü ildə yenidən seçilmək üçün namizəd olacaq. Onun üçün artıq saatın əqrəbi seçkiyə qalan vaxtı geri hesablayır".

## PEKİN TƏXRİBATA ÇƏKİLİR?

"Üçbucaq" üzvlərindən heç biri Pekini təxribata çəkmək istəmir. Lakin Pekin hesab edir ki, ABŞ onu diplomatik yolla təcrid etmək və düşmən hərbi müttəfiqlər şəbəkəsi ilə əhatə etmək istəyir. Çin mediası yazır ki, Kemp-Devid görüşünün məqsədi "mini NATO" yaratmaqdır. Bu, regiona dağıdıcı təsir göstərəcək və Şərqi Asiyada yeni münaqişələrə səbəb olacaq. Çin Beynəlxalq Münasibətlər Universitetinin professoru Li Haidong də bu qənaətdədir: "Mini NATO" mexanizmi Koreya yarımadasındakı nüvə və raket təhdidlərinin yaratdığı narahatlıq üzərində rüsvayçılıqla oynanılır. Amma "üçbucaq" bu problemi həll etmək istəmir. Əksinə, ABŞ bu real təhlükədən regionda dominant rolunu möhkəmləndirmək üçün istifadə etmək istəyir".

Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun Koreya və Monqolustan üzrə şöbəsinin müdiri Aleksandr Vorontsov isə qeyd edib ki, siyasətçilər bu "üçbucaq"dan əvvəllər də danışıblar: "Amma hərbi komponent zəif idi. Bayden dövründə hərbi əməkdaşlıq sürətlə inkişaf etməyə başladı. Dəniz təlimləri müntəzəm xarakter aldı. Məqsəd, məncə, hərbi-siyasi ittifaq yaratmaqdır. Ukraynaya öldürücü silahların birbaşa tədarükünə gəlincə, Cənubi Koreya və Yaponiya indiyədək bundan çəkiniblər. Lakin ABŞ "üçbucaq"a həm də anti-Rusiya diqqətini vermək istəyir. ABŞ bu iki müttəfiqinə təzyiqi artıracaq".

Bir faktdı da qeyd edək ki, Asiya-Sakit okean regionunda (APR) ABŞ-dən asılı olan bütün ölkələri birləşdirmək ideyası çoxdan mövcuddur. Bundan əvvəl Asiya-Sakit okean regionunda NATO kimi hərbi-siyasi blok yaratmaq cəhdləri artıq olub. Məsələn, 1955-1977-ci illərdə Cənub-Şərqi Asiya Müqaviləsi Təşkilatı (SEATO) fəaliyyət göstərib. Yaponiya və Cənubi Koreya həmişə Anqlo-Sakson təşkilatlarına qoşulmaq üçün ilk namizəd kimi görünürdülər. Sammit ərəfəsində məlumat var idi ki, Vaşinqton Tokio və Seulun AUKUS-a (Avstraliya, Böyük Britaniya və ABŞ-nin yaratdığı müdafiə ittifaqı) qoşulması imkanlarını müzakirə edəcək. Ancaq böyük ehtimalla bu, baş verməyəcək. Fakt budur ki, Yaponiya və Cənubi Koreya ABŞ-nin müttəfiqləri olsalar da, heç birinin ümumi ikitərəfli razılaşması yoxdur.

Ekspertlər hesab edirlər ki, bu cür üçtərəfli əməkdaşlıq çətin ki, regionun digər ölkələrini arxayınlaşdırsın. Əgər bu ittifaq formalaşsa, region ölkələrini iki kateqoriyaya ayıracaq: bir kateqoriya ABŞ, Yaponiya və Cənubi Koreya, digər kateqoriya isə kollektiv təhlükəsizlik sisteminin bir hissəsi olmayan, çox vaxt "yad" və "təhdidedici" kimi adlandırılan ölkələr olacaq.



Aleksandr Vorontsov



# SU DÜNYANIN ƏN BAHALI MƏHSULU OLA BİLƏR

Hesablamalara görə, 2050-ci ildə dünya əhalisinin sayı on milyardı keçəcək. Bəs yer planeti bu qədər adamı yedirib, su ilə təmin edə biləcəkmi? Müşahidələr göstərir ki, ən yaxın zamanlarda Yer kürəsi içməli su qıtlığı ilə üz-üzə qala bilər.



KUBRA MƏHƏRRƏMOVA

Qlobal istiləşmə, su ehtiyatlarının azlığı artıq hər gün müzakirə olunan mövzulardır. Təəssüflər olsun ki, bəşəriyyət hələ də bu problemin nə qədər genişmiqyaslı olması barədə düşünmür, ya da onu ciddiyə almır.

Su ehtiyatlarının azalmasında tək qlobal iqlim dəyişikliyi yox, həm də dünya əhalisinin durmadan artan sayı da böyük rol oynayır.

### 200 MİNDƏN ÜÇ MİLYONA SIÇRAYIŞ

Təsəvvür edin, XX əsrin əvvəllərində Bakıda 200 mindən çox insan yaşayırdısa, bu gün bu göstərici üç milyonu keçib. Düşünün ki, bu qədər sakini su ilə təmin etmək lazımdır. Tək su ilə yox, eyni zamanda çörəklə, digər zəruri ərzaqlarla da. Deməli, daha çox əkin sahələri və daha çox su sərf olunmalıdır. Nəzərə alsaq ki, əhali sayı durmadan artır, deməli, resurslar da daha çox olmalıdır. Bəs Yer kürəsinin resursları artırmı? Təəssüf ki, yox. Əksinə, getdikcə azalır.

Gəlin, dünya əhalisini sayının dəyişməsinə nəzər yetirək.  Məsələn, on min il əvvəl Yerdə təqribən beş milyon insan yaşayırdı.

XIX əsrin əvvəlinə kimi dünya əhalisi çox ağır templə artırdı. Buna səbəb müharibələr, epidemiyalar, tibbin ən adi xəstəliklər qarşısında əlacsız qalması, aclıq, səfalət, insanların həyat tərzinin təhlükəli olması, doğuş zamanı ana və uşaq ölümlərinin kütləviliyi və başqa səbəblər idi.

### İNSANLIQ ÖZÜ ÖZ ƏLİYLƏ TABUTUNUN MİSMARINI VURUR

Bəşəriyyət elmi-texniki tərəqqi əldə etdikcə, əhalinin sayı da sürətlə artmağa başlayır. Beləliklə, 1800-cü ildə Yer kürəsinin əhalisi bir milyarda çatır.

1960-cı ildə isə əhali sayı üç milyardı keçir. Bu tarixi kəsikdən sonra rəqəmlər sanki uçmağa başlayır.

Bu gün dünyada 7 milyard 700 milyon insan var. Bu rəqəm planet üçün çoxdurmu, azdırmı? Suala yekdil cavab yoxdur. Bəzi mütəxəssislər bunu təhlükəli rəqəm hesab edirlər.

Hesablamalara görə, 2050-ci ildə dünya əhalisinin sayı on milyardı keçəcək. Bəs Yer planeti bu qədər adamı daşıya biləcəkmi? Bu qədər adam üçün su, çörək, ən adi ehtiyacları ödəyə biləcəkmi?

Uzun illərdir dünyada qeyri-hökumət təşkilatları böyük şirkətlərin istehsal etdikləri məhsullar qarşılığında ətraf mühitin çirklənməsi, bəzi hallarda təbiətin, su hövzələrinin məhvi barədə həyəcan təbili çalırlar. Lakin heç bir dəyişiklik müşahidə olunmur. Sanki insanlıq özü öz əliylə tabutunun mismarını vurur.

### SU DÜNYANIN ƏN BAHALI MƏHSULU OLACAQ?

Etiraf etməliyik ki, biz insan olaraq bu planetdə təbiətə görə varıq. Amma bu gün təbiət ölür. Daha doğrusu, bu gün biz onu məhv edirik, öldürürük.

Bəs hər gün böyüyən iştahamız bizə sonda nə verəcək?  Dünya əhalisi on milyard olanda içməyə su tapacaqmı? Yoxsa, su dünyanın ən bahalı məhsulu olacaqlar? Bəlkə 30 il sonra insanlar su uğrunda qanlı müharibələrə başlayacaq? Suallar həddindən artıq çoxdur.



## NEFT QUYULARI ƏVƏZİNƏ SU QUYULARI

Su uğrunda mübarizə artıq qlobal miqyasda böyüyüb. Suyun çatışmazlığı özünü ilk növbədə dünyanın böyük şəhərlərində göstərir. Böyük şəhərlərdə əhalinin suya ehtiyacını ödəmək üçün müxtəlif yollar axtarılır. Məsələn, bu gün Braziliyanın ən böyük şəhərlərindən biri San-Pauluda 22 milyondan çox insan yaşayır. 2014-cü ildə şəhər ən böyük quraqlıq dövrünü yaşayıb. O vaxtdan yerli su anbarları demək olar ki, quruyub. Bəzi sakinlər susuz qalmamaq üçün çıxış yolu tapıblar. Onlar hər on metrdən bir su quyusu qazaraq özlərini içməli su ilə təmin ediblər. Bu quyuların qazılması ixtisaslaşmış şirkətlər tərəfindən həyata keçirilir, sayı isə 13 mini keçib. Bir zamanlar insanlar neft quyuları qazırdılarsa, indi su quyuları qazırlar.

Şəhərlərin əhali sıxlığı nəticəsində hələ nə qədər quyular qazılacaq? Bu, təhlükəsizdirmi?

Üstəlik, yağıntılar da azalır. Su anbarları, çaylar, göllər quruyur. Bu, bütün dünyada yaşanan qlobal prosesə çevrilib. Qarşımızda apokalipsis (dünyanın sonu) tablosu canlanır.

## İNSAN ƏMƏLİ İLƏ MƏHV EDİLƏN FLORA VƏ FAUNA

İndi soruşacaqsınız, bəs niyə yağıntılar azalır?

Çünki insan övladı durmadan meşələri qırır, əkin yerlərinə çevirir. Artan əhalini yedirtmək lazımdır. Ağaclar azaldıqca, quraqlıq da artır. Mən hələ flora və faunaya dəyən ziyandan danışmıram. Hələ dəniz və okeanlarda məhv edilən balıqları, digər canlıları demirəm. Bəli, təbiətin yaratdığı mükəmməl eko-sistem var ki, özü hər şeyi yerbəyer edir. Lakin bəşəriyyət, insanlıq, elmi-texniki imkanlar inkişaf etdikcə təbiətə daha çox müdaxilə olundu, onun işlək sistemi korlandı.

Bəzi mütəxəssislər dəniz sularının şirinləşdirilməsi və ya başqa yerlərdən quraqlıq yaşanan yerlərə su daşınmasını çıxış yolu kimi qeyd edirlər. Amma durmadan artan dünya əhalisi üçün bu, heç də uğurlu çıxış yoluna oxşamır.



Bəs Azərbaycanda vəziyyət necədir?

Cənubi Qafqazın ümumi su ehtiyatının cəmi on faizi ölkəmizin payına düşür. Ərazimizin dörddə üçü Kür çayı hövzəsindədir. Bu çay ölkə əhalisi üçün əsas içməli su mənbələrindən biridir. Təəssüflər olsun ki, son illər Kür çayının quruması müşahidə olunur. Bunun da səbəbləri var. Çay qonşu ölkələrdən keçib Azərbaycana gəlir. Suyun ölkələr arasında ədalətli paylanması ilə bağlı razılaşma da yoxdur. Düşünürəm ki, hər birimiz suya və təbiət resurslarına qarşı daha məsuliyyətli davranmalıyıq. Ən azı, əllərimizi sabunlayanda su kranını açıq qoymayaq. Yaxud, qabları sabunlayanda su kranını bağlasaq, ildə tonlarla suya qənaət etmiş olarıq.

# QEYRİ-NEFT SEKTORU ƏSAS GƏLİR MƏNBƏYİNƏ ÇEVRİLİR



İxracın idxalı üstələməsində tək neft-qaz sektoru deyil, həm də qeyri-neft sektoru əhəmiyyətli baza formalaşdırır. Qeyri-neft ixracının həcminin artması manata xarici təzyiqlərin neytrallaşdırılmasında da mühüm rol oynayır.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzindən bildirilib ki, bu ilin yanvar-iyul aylarında Azərbaycan 2 milyard ABŞ dolları dəyərində qeyri-neft məhsulları ixrac edib. Məlumata görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 17,8 faiz çoxdur. Xatırladaq ki, 2022-ci ildə Azərbaycanın qeyri-neft ixracı 2021-ci illə müqayisədə 12,3 faiz artaraq 3 milyard 47,67 milyon ABŞ dolları təşkil etmişdi.

Bəs bu artıma imkan yaradan səbəblər hansılardır? Ümumiyyətlə, qeyri-neft məhsullarının ixracının artması hansı perspektivlər vəd edir?

### İXRAC İMKANLARI VƏ COĞRAFİYASI GENİŞLƏNİR

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Aydın Hüseynov bildirib ki, son illər qeyri-neft ixracını təşviq edən siyasətin yürüdülməsi sayəsində ixrac məhsullarının həcmi və dəyəri artıb: "İqtisadiyyatın diversifikasiyası nəticəsində qeyri-neft sektoruna aid məhsulların çeşidlənməsi və müxtəlifliyi, o cümlədən coğrafi şaxələndirmə ölkəmizin ixrac balansına müsbət təsir edib, mal və məhsulların müxtəlifliyi, xarici ticarətin strukturu və coğrafiyasının genişlənməsinə səbəb olub. Son illərdə ixracla məşğul olan sahibkarlara dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi, ixrac təşviqləri, ticarətin asanlaşdırılması və əlverişli ixrac imkanlarının yaradılması, eləcə də xarici ölkələrdə Azərbaycan məhsullarının tanıdılması və ticarət evlərinin fəaliyyətinin artırılması bu məsələdə mühüm rol oynayıb. Nəticədə, 2022-ci ildə Azərbaycanın ümumi ixracında qeyri-neft sektorunun payı 10 faiz təşkil etməklə 3 milyard dollara bərabər olub. İxracda tək kənd təsərrüfatı məhsullarının payı 20 faizdən çox yüksəlib. Ötən il aqrar məhsulların ixrac dəyəri 1 milyard dollardan çox olub. Eləcə də, sənaye məhsullarının ixracında əhəmiyyətli artım baş verib".

### AZƏRBAYCANA DAXİL OLAN XARİCİ VALYUTANIN HƏCMİ ARTIR

A.Hüseynovun sözlərinə görə, qeyri-neft sektorunun inkişaf etməsi iqtisadi dayanıqlılığımızı və manatın sabitliyini artıran mühüm amillərdir: "İxrac həcminin böyüməsi iqtisadiyyatımıza çox mühüm faydalar verir. İlk növbədə ixracla məşğul olan sahibkarların kapital yığımlarını artırır. Bu da qeyri-neft ixracatçılarının mövqeyinin möhkəmlənməsi deməkdir. İkincisi, qeyri-neft ixracının artması Azərbaycana daxil olan xarici valyutanın həcminin də artmasına səbəb olur. Nəticədə ölkəmizin strateji valyuta ehtiyatlarının həcmində qeyri-neft ixracının payı yüksəlir. Ən mühüm amillərdən biri, ölkəmizin tədiyyə balansının gücləndirilməsidir. İxracın idxalı üstələməsində tək neft-qaz sektoru deyil, həm də qeyri-neft sektoru əhəmiyyətli baza formalaşdırır. Qeyri-neft ixracının həcminin artması manata xarici təzyiqlərin neytrallaşdırılmasında monetar faktorlardan biri kimi mühüm əhəmiyyət daşıyır. Xarici valyutanın ölkəyə daxil olmasını stimullaşdırır. Bu sahədə artım iqtisadi inkişafın və makroiqtisadi sabitliyin dayanıqlılığının təmin olunmasında əsas faktorlardan biridir".




### NEFT FONDUNDAKI GƏLİRLƏR QEYRİ-NEFT SEKTORUNA YÖNƏLDİLMƏLİDİR

İqtisadçı Mahir Zeynalovun fikrincə, dünya ölkələrində artıq digər yanacaq növlərinə keçid baş verir deyə, neftdən asılılığı azaltmalıyıq: "İndi dövlət büdcəsinə gələn gəlirin rəsmən 53 faizi neftlə bağlıdır. Vergiləri də nəzərə alsaq, bu, 60 faizə qədərdir. Amma 7-8 il əvvəl bu rəqəm 70-75 faiz idi. İndi asılılıq bir az azalıb. Amma bunu 25 faizə endirmək lazımdır. Neft Fondunda olan ehtiyatlarımızı qeyri-neft sektoruna yönəltməliyik. Növbəti on illiklər üçün qeyri-neft sektorunu mütləq inkişaf etdirməliyik. Artıq neft azalır. Biz bunu 10 ildən sonra daha çox hiss edəcəyik".

### QARABAĞIN AZAD EDİLMƏSİ GENİŞ İMKANLAR AÇIR

Ekspert qeyd etdi ki, Qarabağın işğaldan azad olunması qeyri-neft sektorumuzun inkişafına daha da töhfə verəcək: "Azərbaycanın qeyri-neft sektorunda böyük potensialı var. İndikindən də yüksək nəticələrə nail olmaq mümkündür. Xüsusən, Qarabağ işğaldan azad olunandan sonra bizim daha geniş imkanlarımız yaranıb. Orada həm müasir kənd təsərrüfatı, həm də müasir emal sənayesi qura bilərik. Qarabağda müasir emal sənayesi qura bilsək, növbəti illərdə qeyri-neft sektorunda 5-15 faiz inkişaf meylləri görəcəyik. Hökumət bunun üçün bir sıra təşviq mexanizmləri də həyata keçirir, stimullaşdırıcı addımlar atır. Qarabağda istehsalla məşğul olacaq sahibkarlar 10 il əksər vergilərdən azad olunub. Onlara güzəştli kreditlər ayrılır".

### "BU FAİZLƏRLƏ BİZNES QURMAQ OLMAZ"

M.Zeynalov bu sahədə mövcud olan problemlərdən də söhbət açıb: "İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondu sahibkarlar üçün 150 milyon manat kredit ayırır. Özəl sektor üçün bu kreditin həcmi aşağıdır. Bu, 500 milyon manat həcmində olmalıdır. Azərbaycan sahibkarlarının əsas problemi əlverişli şərtlərlə maliyyə qaynaqlarına əlçatanlığın olmamasıdır. Sahibkarlar daha ucuz kreditlər istəyirlər. Bildirirlər ki, bank kreditlərinin faizləri yüksəkdir, onunla biznes qurmaq olmaz. Həqiqətən də 18-22 faizlə biznes qurmaq mümkün deyil. İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondu ayrılan güzəştli kreditlərin həm həcmini artırmalı, həm də girov şərtlərini yumşaltmalıdır ki, sahibkarlar öz bizneslərini genişləndirə bilsinlər. Azərbaycanın qeyri-neft sektorunun gələcək inkişafı ölkədə özəl biznesə yaradılacaq şəraitdən asılıdır. Biznes mühiti nə qədər əlverişli olsa, qeyri-neft sektorunda bir o qədər iqtisadi artıma nail ola biləcəyik. Bu halda qeyri-neft sektorunun rəqabətli inkişafını müşahidə edəcəyik".

Kaspi ÜÇ ƏSRİN QƏZETİ
Təsisçi
**Global Media Group**
Baş redaktor
**İlham Quliyev**
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Rufik İsmayılov, Böyükxanım Kərimova, Könül Cəfərli, Kubra Məhərrəmova, İlhamə Əbülfət, Aysel Aslan, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**
Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall Ticarət Mərkəzi**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydiyyatdan keçib.
Lisenziya №022264, Qeydiyyat № V 64
Qəzet redaksiya kompyuter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 2168
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# Bəndlərimiz nə dərəcədə KEYFİYYƏTLİDİR?

**Şakir İmanov:** "Mingəçevir İstilik Elektrik Stansiyasının soyutma sistemi Yuxarı Qarabağ kanalına qoşulduğu üçün suyu tuneldən kəsə bilmirik. Suyun altında olan qurğulara baxış keçirmək mümkün deyil. Bu qurğular da öz möhkəmliyini müəyyən qədər itirib. Bərdədə bəndin uçmasına səbəb bu idi".





ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Avqustun 2-də Bərdə rayonunda Yuxarı Qarabağ kanalının bir hissəsinin dağılması nəticəsində Ərəblər və Qaraqoyunlu kəndlərinə xeyli ziyan dəymişdi. Bəzi vətəndaşların evlərini su basmış, əkin sahələri də zərər görmüşdü. Lakin bu, son zamanlar bəndlərimizdə və kanallarımızda baş verən ilk uçqun hadisəsi deyil. O zaman sual yaranır: Sovet dövründə inşa edilən və uzun illərdir ki, istismar olunan kanallar hansı vəziyyətdədir?

## BETON DEYİL, TORPAQDIR

Yuxarı Qarabağ kanalının istismar idarəsinin rəisi Şakir İmanov bildirdi ki, bu kanal 1958-ci ildə istismara verilib. Kanal mənbəyini Mingəçevir su anbarından götürür. Altı rayonun ərazisindən keçməklə 11 rayonun kənd təsərrüfatının su təchizatına xidmət edir. Qarabağ kanalı betondan deyil, torpaq kanaldır. 172,4 km sağ sahil, o qədər də sol sahil torpaq bənddən ibarətdir. Bəndlərin 90 faizi yaxşı vəziyyətdədir. Kanal üzərində 119 ədəd hidrotexniki qurğu mövcuddur. Üst ərazilərdən keçən sel sularının kanalın sağ sahil yamacına yığılıb təhlükə yaratmaması üçün selötürücü qurğular mövcuddur. Həmin qurğulardan sular Kür çayına qovuşur. Ş.İmanov bildirdi ki, Bərdə rayonu ərazisindəki hadisə kanalın altından keçən selötürücünün çıxış hissəsində baş verib: "Kanalın alt oturacağından 1,2 metr diametrində dəmir beton boruların birləşən yerində sızıntı olmuşdu. Onu görməmişik. Qurğularla quyuların arasından su qaynamağa başlayıb, ani olaraq dörd metrlik bəndi uçurdu. Çünki artıq bəndlər öz keyfiyyətini itirib. Onlar 70 ilə yaxındır istismar olunur. Ən yaxşı betona belə zəmanət 50 ildir. Hadisənin qarşısı tez alındı. 3-4 saat ərzində həmin yer də beton daşlarla sızıntının qarşısı alındı, üstü də torpaqlandı".



Şakir İmanov

## HİDROTEXNİKİ QURĞULARA BAXIŞ KEÇİRMƏK MÜMKÜN DEYİL

İdarə rəisinin sözlərinə görə, kanalın keyfiyyətini aşağı salan və təhlükəni yaradan Mingəçevir İstilik Elektrik Stansiyasına bağlı olmalarıdır: "Kanalın əksər hissələri qazmadır. Orada elə də təhlükə yoxdur. Lakin tökmə hissələrdə təhlükə mövcuddur. Orada illərdir bənd bərkitmə işləri aparırıq. Kanalın üzərində olan hidrotexniki qurğularda təmir işləri aparmışıq, gözlə görünən hissələrə vaxtlı-vaxtında nəzarət edirik. Lakin su altında qalan hidrotexniki qurğuların vəziyyətinə baxış keçirmək mümkün deyil. Çünki Mingəçevir İstilik Elektrik Stansiyasının özünün müstəqil su qəbuledici qurğusu yoxdur. Yalnız bizim tunel vasitəsilə soyutma sistemi həyata keçirilir. İldə bir dəfə, suvarma müddəti bitəndən sonra kanalın suyunu tamamilə kəsib tunelə, su altında qalan hidrotexniki qurğulara texniki baxış keçirməliyik ki, harada qüsur varsa, onu aradan qaldıraq. Təəssüflər olsun ki, 1981-ci ildən - Mingəçevir İstilik Elektrik Stansiyasının soyutma sistemi bizə qoşulandan tuneldən suyu kəsə bilmirik. Ona görə suyun altında olan qurğulara baxış keçirmək mümkün deyil. Bu qurğular da öz möhkəmliyini müəyyən qədər itirib".

## MİNGƏÇEVİR İES ÜÇÜN AYRICA TUNEL TİKİLİR

Ş.İmanovun sözlərinə görə, təkliflərini təqdim ediblər və yaxın zamanda bütün problemlər aradan qaldırılacaq: "Belə hal bir də yaşanmasın deyə, maşın mexanizmləri vasitəsilə torpaq daşınır, bəndlərin hündürlüyünün artırılması aparılır. Əvvəldən beton kanal etsəydilər, su itkisi də olmazdı. İndi kanalı beton etmək üçün gərək su kəsilsin, aylarla, illərlə orada təmir işləri aparılsın. Bu da mümkün deyil. Çünki əkin sahələrinə su lazımdır. Gələcəkdə müvəqqəti kanal çəkiləcək və yatağını betonlayacaqlar. Bu layihələr hazırlanır, kanal torpaqdan yox, betondan olacaq. Hazırda Mingəçevir İstilik Elektrik Stansiyası üçün tunel də tikilir. O istifadəyə veriləndən sonra bizdən ayrılacaq".

## SIZMA BAŞ VERƏRSƏ...

Yuxarı Şirvan kanalının istismar idarəsinin baş mühəndisi Şəhruz Rəsulov isə bildirdi ki, kanal 1958-ci ildə tikilib. Uzunluğu 122,2 km-dir. Hazırda Yevlax, Ağdaş, Göyçay, Zərdab, İsmayıllı, Ağsu, Kürdəmir, Ucar, Şamaxı, Hacıqabul rayonlarını əkin suyu ilə təmin edir. Öz başlanğıcını Mingəçevir su anbarından götürür. Kanal üzərində hazırda 119 ədəd hidrotexniki, 52 ədəd selötürücü qurğu mövcuddur.

Ş.Rəsulov dedi ki, Yuxarı Şirvan kanalında vəziyyət daha ürəkaçandır: "Bizdə hazırda cari təmir işləri davam etməkdədir. Kanalın Ağdaş-Göyçay hissəsində nəzarət bizdədir. Mingəçevir-Varvara ərazisi, Xanabad kəndi isə 2011-ci ildən Fövqəladə Hallar Nazirliyinə təhvil verilib. Amma yaxın zamanda özümüzə qaytarılacaq. Bizim Qarabağ kanalı ilə fərqimiz ondadır ki, hadisə baş verəndə suyu saxlaya bilir, təmir işlərini və s. rahat görürük. Belə hadisələrin baş verməməsi üçün bəndlər möhkəmləndirilməli, kanalın üzərində gəzilməli, sahə rəhbəri özü şəxsən nəzarət etməlidir. Bizdə gündəlik nəzarət olunur və məlumat verilir. Nəmişlik olarsa, sızma baş verərsə, dərhal tədbir görülür".



## KANALIN SU BURAXMAQ QABİLİYYƏTİ AZALA BİLƏR

Ekoloq Rövşən Abbasovun fikrincə isə, Bərdədə bəndin uçması onun nəticəsi idi ki, kanala normadan artıq su axıdılmışdı. Ona görə də, bəndin yuyulması və uçması baş verdi. Bunun nəticəsində kəndlilərə iqtisadi ziyan dəydi, əkin sahələri suyun altında qaldı.

Ekspertin sözlərinə görə, kanallara yeni bəndlər vurmaqdansa, dibini təmizləsələr, bu, daha təhlükəsiz olar: "Öncə, hər bir kanal üçün maksimum suburaxma qabiliyyəti müəyyən etməliyik. Bilməliyik ki, ildən-ilə kanalın bu parametr üzrə göstəricisi azala bilər. Ona görə də kanalların müntəzəm olaraq təmizlənməsi çox vacibdir ki, belə hallar baş verməsin. Amma bizdə kanalın dibini təmizləmək əvəzinə bənd vurulma prosesi həyata keçirilir. Bu da kanalın digər ərazilərə nisbətən tədricən hündürə qalxmasına səbəb olur. Kanal ətraf ərazilərdən xeyli yuxarıda qalır, bəndin uçması nəticəsində də ətraf əraziləri su basır. Ona görə də, azı ildə bir dəfə monitorinqlər aparılmalı, bərkitmə işləri həyata keçirilməlidir".



Rövşən Abbasov

# SÜRƏTLİ YOX, AĞILLA ARIQLAMAQ LAZIMDIR

Həkimlər sürətli arıqlamağın həm sağlamlıq, həm də gözəllik üçün zərərli olduğunu deyirlər. Orqanizm sürətli çəki itirəndə hüceyrələrdə aclıq yaranır. Ona görə də artıq çəkini sürətli yox, ağılla itirmək lazımdır



AYGÜN ASİMQIZI



Artıq çəkidən xilas olmaq istəyənlərin ən böyük arzusu qısa müddətdə, sürətli şəkildə arıqlamaqdır. Çünki uzun müddət pəhriz saxlamağa, idmanla məşğul olmağa heç də hər kəs sona qədər davam gətirə bilmir. Mütəxəssislər sürətli çəki itirilməsini məsləhət görmürlər. Maraqlıdır, niyə? Ümumiyyətlə, sürətli çəki itirmək deyəndə nə nəzərdə tutulur?

Diyetoloq Turxan Baratzadənin sözlərinə görə, bir ay ərzində çəkimizin 10 faizdən çoxunu itiririksə, deməli, sürətli arıqlama gedir: "80 kiloqram çəkisi olan biri 1-ci ay 8 kiloqram, 2-ci ay 7 kiloqram, 3-cü ay da təxminən bu qədər arıqlayırsa, bu, artıq həddindən artıq sürətli çəki itirilməsi deməkdir və normal sayılmır. Həftəyə bir kiloqram çəki vermək daha məsləhətli və sağlamdır".

### UZUN MÜDDƏT YARIAC GƏZMƏK?

Son vaxtlar məşhur olan "su orucu"nda da insanlar sürətli çəki itirirlər. Bəs bu niyə məsləhət görülür? T.Baratzadə deyir ki, burada yanaşma fərqlidir: "Bəli, su orucunda da sürətli arıqlama baş verir. Bir-iki həftə ərzində çox miqdarda çəki vermək olur. Bunun isə bir yeniləmə, detoks olduğu düşünülməkdədir. 1-2 həftə sonra artıq sən eyni formada çəki itirmirsən, qısa müddətlik prosesdir".

T.Baratzadə bildirdi ki, çəkidən tez qurtulmaq üçün uzun müddət yarıac gəzmək həm bədən üçün stressdir, həm də makro və mikro elementlərin yetərli alınmaması bir çox problemin yaranmasına səbəb olur. Bunlar başlıca olaraq ürək ritminin pozulması, aşağı qan təzyiqi, elektrolit balansının pozulması, orqan çatışmazlığı, anemiya, saç tökülməsi, tiroid tənbəlliyi, öd kisəsi daşı, yuxu pozğunluqları, depressiya və s.-dir.



Turxan Baratzadə

## "HƏR ORQANİZM DÖZƏ BİLMİR"

Terapevt Məlahət Abbasova deyir ki, sürətli çəki itirməyə hər orqanizm dözə bilmir: "Çox tez arıqlayırlar deyə, birinci sevinirlər, amma sonra bədən gücdən düşür, halsızlıq, zəiflik yaranır, işgörmə qabiliyyətləri itir, heç nə etməyə gücləri qalmır. Bədənə yağlar, zülallar, karbohidratlar, - hamısı lazımdır. Sürətli çəki itirmək üçün orqanizmi, hüceyrələri ac saxlamaq olmaz. Onlar həyat uğrunda mübarizə aparırlar".

M.Abbasovanın sözlərinə görə, orqanizmimizin zərər görməməsi üçün çəkini yavaş-yavaş itirməliyik: "Orqanizm o çəkini birdən almayıb. Yavaş-yavaş, qram-qram alıb. Siz onu sürətli şəkildə itirən zaman orqanizmə əziyyət vermiş olursunuz. Çünki bədənin də bir rejimi formalaşıb. Birdən-birə sürətli çəki itəndə, bədəndə böyük dəyişiklik gedir. Ona görə çəkini asta-asta, orqanizmi öyrəşdirə-öyrəşdirə atmaq lazımdır. Bədən buna alışmalıdır".



Məlahət Abbasova

## DİYETDƏN KƏNARA ÇIXAN KİMİ...

Terapevt bildirdi ki, sürətli çəki itirmək bədənimiz üçün estetik cəhətdən də yaxşı deyil: "Hüceyrələr ac qalanda dəri solğunlaşır. Fikir versəniz, görərsiniz ki, sürətli çəki itirənlərin dəriləri solğun olur. Yavaş-yavaş və düzgün şəkildə arıqlayanlarda bunu görməzsiniz. Çünki sürətli çəki itirəndə bədən faydalı maddələri itirir. Birbaşa çəki itəndə dəridə sallanma və solğunluq yaranır. Çəkini ağılla itirəndə, dəri yavaş-yavaş yığılır".

M.Abbasova qeyd etdi ki, sürətli çəki verən diyeta axtarmamalıyıq: "Fikir vermisinizsə, çox adam sürətli çəki verdirən diyetalar axtarır. Artıq çəkilərindən qısa zamanda qurtulmaq istəyirlər. Arıqlayırlar, ancaq həmin şəxslər diyetadan bir az kənara çıxan kimi həmin çəkidən də artıq çəki yığırlar. Çünki orqanizm sürətli çəki itirəndə hüceyrələrdə aclıq yaranır. Ani bir pəhrizi pozanda, çəkilərini birə beş artırırlar. Onun üçün artıq çəkini sürətli yox, ağılla itirmək lazımdır.

Həkim məsləhəti ilə, hər kəsə fərdi yanaşma ilə olmalıdır. Çünki artıq çəkinin səbəbi heç də hər kəsdə eyni deyil".



## "SONRA ARIQLAMANIN QARŞISINI ALA BİLMİRDİM"

Sürətli çəki verən Təranə Hüseynova sonra sağlamlıq problemi ilə rastlaşdığını deyir: "Rayonda yaşayırdım, həmişə çəkim qaydasında olub. Sonra evlənib Bakıya köçdüm. Kənddən şəhərə gəldim, istər-istəməz hərəkətlilik azaldı. Yavaş-yavaş çəkim artdı. Bir də ayıldım ki, 55 kiloqramdan 98 kiloqrama çatmışam. Bir dəfə də tanışlardan biri çəkimlə bağlı zarafat etdi, özümü pis hiss etdim. Dedim ki, arıqlayacam. Soyutma qidalar yedim, çörək, yağ, duz, şəkərdən imtina etdim. Üç ay olmamışdı, 20 kiloqram çəki atmışdım. Sonra arıqlamanın qarşısını ala bilmirdim. İştaham olmadı. Mədəm elə hala gəldi ki, yediyimi qusurdum. Qısası, sonradan həkimlərdə qaldım".



Ləman Etibarova sürətli çəki itirdiyini, sonra onu elə sürətli şəkildə də geri qaytardığını bildirdi: "Çəkim çox idi. İdman etməklə və bir çox qidalardan imtina etməklə arıqladım. Arıqlayandan sonra normal həyata döndüm. Yenidən bir ay içərisində 5 kiloqramdan çox çəkim artdı. Üç ay tamam deyildi, 12 kiloqram artıq çəkim oldu. Əvvəlki qədər yemirdim, ancaq çəkim artırdı".

Düzdür, sürətli şəkildə çəki itirib sağlamlığında heç bir problem olmayan nümunələr də ola bilər. Lakin sağlamlığımız elə məsələdir ki, az nümunələrə görə onu riskə atmamalıyıq.

# YAZIÇI MÜTLƏQ SAVADLI OLMALIDIR



**Lalə Umud:** "Dövr texnologiya dövrüdür və biz bununla necəsə ayaqlaşmalıyıq. Buna görə bizim "Çeburaşka"mız, "Qırmızı papağ"ımız indiki hiperkativ uşaqlara maraqlı deyil. Onlara içində nəsə yeni texnologiyalarla bağlı, indiki dinamik dövrlə səsləşən hekayələr lazımdır".



SÖHBƏTLƏŞDİ
XANIM AYDIN
xanimaydin@kaspi.az

İstedad elə bir şeydir ki, ya var, ya da yox. Onu qazanmaq, pulla almaq, borca götürmək olmur. İstedad tanrı tərəfindən ruha üfürülür və yaradıcı adam onu özüylə birgə böyüdür. Bəzən tanrı bir adamda iki yaradıcı ruhu birləşdirir. Müsahibim Lalə Umud da özündə rəssamlıqla yazıçılığı birləşdirən bir xanımdır.

### "ƏDƏBİYYAT BAŞQADIR, MƏN BUNA ÇOX CİDDİ YANAŞIRAM"

Yaradıcılığa rəssamlıqla başlayan Lalə xanım bunu heç yerdə öyrənmədiyini deyir: "Sevirdim, çəkirdim. Amma yazmaq bir qədər başqa cür oldu. İxtisasca filoloq, linqvistəm. Həmişə yazmaq istəyi olub məndə, yazmışam da. Amma heç vaxt üzə çıxarmamışam. Sanki daxila yığırmış kimi yazıb yığırdım. İtalyan dilindən sinxron tərcüməçi olduğuma görə ölkələri gəzirdim, gördüklərimdən ilhamlanır, qeydlər aparırdım. Eyni zamanda da, çəkirdim. Yəni iki yaradıcı qol bir çay kimi, məndə paralel axırdı. Bir gün bəstəkar Gövhər Həsənzadə mənim rəsmlərimi gördü və sərgi keçirmək üçün təkid etdi. Əvvəl tərəddüd etsəm də, razılaşdım. İlk sərgim 2019-cu ildə oldu. Rəsmlərim bəyənildi və məni Rəssamlar İttifaqına üzv qəbul etdilər. Çox rahat rəsm çəkir, tənqiddən qorxmurdum. Fikirləşirdim irad olsa, deyəcəyəm, özüm öyrənmişəm, bəyəndiyimi çəkirəm. Amma ədəbiyyat başqadır. Buna çox ciddi yanaşıram. Yazmaq məndə daha çox Abşerondakı uşaqlıq xatirələrimlə bağlıdır. Uşaqkən hamı oynayanda mən nənəmin adətlərdən, həyatdan söhbətlərinə qulaq asırdım. Bu, daha maraqlı idi".

### "RUHUM, QƏLBİM UŞAQDIR"

"Düşüncələrim, həyatım, qərarlarım böyüklərə xas olsa da, ruhum, qəlbim uşaqdır", - deyir yazıçı: "Uşaq hekayələrini oğlum balaca olanda başladım yazmağa. Onun üçün "Kartoşkin və Yojkin" ("Kartof və Kirpi") qəhrəmanlarını fikirləşdim. Həmin qəhrəmanların diliylə dostluq münasibətlərini yazmağa başladım. Nağıllarımda gah mən Kartoşkin olurdum, oğlum Yojkin, gah da tərsinə. Amma uşaqlar üçün yazmaq çox çətindir. Böyüklər üçün yazılan əsər ancaq bir oxucunun gözündən keçir. Oxuyur, ya bəyənir, ya bəyənmir. Amma uşaqların senzurası çox ağırdır. Nağıl üç mərhələdən keçməlidir. Nənə-baba oxuyur, sonra ana-ata oxuyur, onlar bəyənsə, artıq uşaq da oxuyur. Bəzən uşaq ədəbiyyatını kiçildirlər. Ümumiyyətlə götürsək, 16-17-ci əsrlərdə nağılı böyüklər üçün yazıblar. Anderson, Şarl Perro və digərləri uşaq yazıçısı kimi tanınsalar da, əslində, onların yazdığı nağıllar uşaqlar üçün deyildi. "Zoluşka", "Qırmızı papaq", "Yatmış gözəl" nağılları da böyüklər üçündür. Sovet vaxtı onları bizə uyğun uşaq mətninə çeviriblər. Mən Kopenhagendə olanda danışırdılar ki, sağlığında Andersona heykəl qoyublar: Oturub, qarşısında da uşaqlar var. Yazıçı bunu görən kimi rədd edib, çünki o, uşaq yazıçısı olduğunu qəbul etmirdi. Yazıçı Danil Harms da eynilə belə olub".

> *"Mühəndis də, mühasib də, müəllim də yazır. Eybi yox, yazsınlar. Amma yazan adam həm istedadlı, həm də mütləq şəkildə savadlı olmalıdır."*




### UŞAQLARIN DİQQƏTİNİ CƏLB ETMƏK ÇƏTİNDİR

Lalə xanım deyir ki, bizim nəsil çox çətin bir mərhələ keçdi: "Çünki, indi mövcud olmayan bir dövlətdə doğulduq, keçid dövrünü yaşadıq, müstəqil bir dövlət qurduq, indi isə birdən-birə super sivilizasiyaya düşdük. Biz hər şeyi kitablardan oxuyurduq, günümüz kitabxanalarda keçirdi. Amma indi bir "kliklə" bütün informasiya gəlir gözünün qabağına. Dövr texnologiya dövrüdür və biz bununla necəsə ayaqlaşmalıyıq. Buna görə bizim "Çeburaşka"mız, "Qırmızı papağ"ımız indiki hiperkativ uşaqlara maraqlı deyil. Onlara içində nəsə yeni texnologiyalarla bağlı, indiki dinamik dövrlə səsləşən hekayələr lazımdır. Orada mütləq sevgi, dostluq olmalıdır. Yəni uşaqların diqqətini cəlb edə bilmək, həm də buna görə çətindir".

**Fotolar:**
Tapdıq Abdullayev / Global Media Group



### "KLASSİKA HƏMİŞƏ DƏBDƏDİR"

Teatrı həddindən artıq çox sevən yazıçı deyir ki, bütün tamaşa premyeralarına gedir, həvəslə izləyir: "Dekonstruksiyaları, interpretasiyaları qətiyyən sevmirəm. O müəlliflər özləri yeni nəsə edə bilmirlər deyə, klassik əsərlərə bu cür toxunurlar. Mənim üçün "Albalı bağı" elə "Albalı bağı"dır. Qapqara səhnədə bir dənə baltanın qoyulmağını başa düşmürəm. İstəyirəm səhnədə Çexovun yazdığı pyesi görüm. Hansısa interpretasiyanı yox. "Yevgeni Onegin" tamaşasına yeni quruluşda baxdıq oğlumla. Dovşanlar tullananda dedi ki, mükəmməldir. Mənsə susdum, bunu qəbul edə bilmədim. Bilmirəm, bəlkə də bu dövrdə doğulsaydım, mənim də xoşuma gələrdi. Həmçinin, rəssamlıqda abstraktı qəbul etmirəm. Mənim üçün klassika həmişə dəbdədir".

### "İNDİ HAMI YAZMAQ İSTƏYİR"

"İndi hamı yazmaq istəyir", - deyir yazıçı: "Mühəndis də, mühasib də, müəllim də yazır. Eybi yox, yazsınlar. Amma yazan adam həm istedadlı, həm də mütləq şəkildə savadlı olmalıdır. Dünyagörüşü, müxtəlif sahələrdə bilikləri, intellektual olmalıdır. Özü heç nə bilməyən, mütaliəsiz adam oxucuya nə öyrədəcək ki? Mən özüm də oxucuyam. Düzdür, deyirlər ki, Mayakovskinin heç savadı olmayıb. Amma o dövr başqa idi. Yazıçı mətni, insanları hiss etməlidir. Çexov deyirdi ki, yazıçı peyğəmbərdir. Peyğəmbər isə gələcəyi deyəndir. Ona görə yazıçı mütləq savadlı olmalıdır".

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
26 AVQUST ŞƏNBƏ 2023

# AZƏRBAYCAN ÇEMPİONLUĞU VƏ ƏN YÜKSƏK REYTİNQ

2016-cı ildə il qrosmeyster Bakıda keçirilən 42-ci Şahmat Olimpiadasında Azərbaycanın ikinci komandasında çıxış edib. 2017-ci ildə Abasov həm Azərbaycan çempionatının, həm də "Baku Open" turnirinin qalibi olub. 2019-cu ilin noyabrında Abasov dünya reytinqində 93-cü yerə yüksəlib və karyerasında ilk dəfə FIDE (Beynəlxalq Şahmat Federasiyası) Top-100-ə daxil olub. Onun ən yaxşı göstəricisi isə 2020-ci ilin fevralında qeydə alınıb. Həmin vaxt Nicatın reytinqi 2670-ə çatıb və Azərbaycanda 3-cü, dünyada isə 67-ci yerdə qərarlaşıb.

Buna qədər isə o, "Grand Swiss"də keçmiş dünya çempionu Vişvanatan Anand, Serqey Karyakin, Boris Gelfand və digər elit oyunçularla mübarizədə 15-ci yeri tutur.

Nicat komanda yarışlarında İspaniyada, Avstriyada, Almaniya 2-ci Bundesliqasında, Türkiyə Liqasında uğurlar əldə edib.






Nicat Abasov Bakıda yalnız dünya şahmatının ilk iki pilləsində qərarlaşan "iti zəka sahibləri"nə uduzdu. Bu nəticə ilə o, İddiaçılar turnirində iştirak etmək hüququ qazandı. Kim bilir, bəlkə də gələn il Nicatı dünya çempionluğu uğrunda çinli Dinq Lijenlə mübarizədə görəcəyik...



FAİQ TAHİROV

# ŞAHMATIMIZIN GEC PARLAYAN ULDUZU

Bakıda keçirilən şahmat üzrə Dünya Kuboku Azərbaycan üçün gözlənilməzliklərlə zəngin oldu. Qazanılan uğur da ehtimal edilmirdi, üzləşilən uğursuzluqlar da.

Nəticələrə nəzər yetirdikdə, qadın şahmatçılarımızın çıxışı, ümumiyyətlə, qənaətbəxş hesab edilə bilməz. Onların heç biri 1/16 finala çıxa bilmədi. Ən yaxşı nəticəni Ülviyyə Fətəliyeva əldə etdi. O da üçüncü raundda yarışın reytinq favoriti çinli Ju Venjuna məğlub odu. Gövhər Beydullayeva, Günay Məmmədzadə və Gülnar Məmmədova ikinci, Xanım Balacayeva birinci raundda məğlubiyyətlə üzləşdilər. Xüsusən, qadın şahmatımızın lideri Günay Məmmədzadənin çıxışı təəssüf doğurdu.

Kişilərin yarışında dünyanın elit şahmatçıları sırasında yer alan Teymur Rəcəbov və Şəhriyar Məmmədyarov uğursuzluğa düçar oldular. Məmmədyarov ikinci raundda, özünün ilk görüşündə zəif rəqiblə qarşılaşmada məğlubiyyətlə üzləşdi. Rəcəbov isə bir mərhələ keçməyi bacarsa da, üçüncü raundda uğursuzluq yaşadı.

Ümumiyyətlə, açıq bölmədə Nicat Abasov istisna olmaqla, ümidləri doğruldan olmadı. Teymurdan başqa, Rauf Məmmədov, Abdulla Qədimbəyli, Qədir Hüseynov üçüncü raundda dayandılar. Digərləri buna qədər mübarizəni dayandırmışdılar. Yalnız Vüqar Əsədli və Rauf Məmmədova bəraət qazandırmaq olar ki, onlar hazırda ən güclülərdən hesab olunan Yan Nepomnyaşşiyə məğlub oldular.

## DÜNYANI TƏƏCCÜBLƏNDİRƏN NİCAT ABASOV KİMDİR?

Dünya Kubokunun sürpriz adı Nicat Abasov oldu. Yarımfinala qədər irəliləyən "iti zəka sahibi" yekunda dördüncü yeri tutdu. Ardıcıl elit şahmatçıları mübarizədən kənarlaşdıran Azərbaycan təmsilçisi çıxışı ilə dünya şahmatsevərlərini, şərhçiləri heyrətə gətirdi.



Ülviyyə Fətəliyeva

28 yaşlı qrosmeyster 2002-ci ildən aktiv şahmat oyunçusudur. 2006-cı ildə U-12 dünya çempionatının bürünc mükafatçısı olan Abasov üç il sonra beynəlxalq usta titulu alıb. 15 yaşında isə Nicat artıq qrosmeyster olub. Abasov bu ad üçün tələb olunan üçüncü və sonuncu normanı 2010-cu ilin dekabr ayının sonunda tamamlayıb. FIDE titulu ona 2011-ci ilin fevralında verib. Daha sonra Nicat U-18 dünya çempionatının blits bölməsində qalib olub, eyni zamanda klassik şahmatda 2-ci yeri bölüşüb. 2015-ci ildə isə Niderlandın Veyk-an-Zee şəhərində keçirilən "Cultural Village" beynəlxalq şahmat turnirində birinci pilləni tutaraq növbəti ildəki "Tata Steel" turnirində iştirak etmək hüququ qazanıb.

## ƏN BÖYÜK NAİLİYYƏT

Müəyyən nəticələri olsa da, əlbəttə, Nicat Abasovun ən böyük uğuru builkidir. Daha əvvəl 2019-cu il Dünya Kubokunda yarışan və ikinci mərhələdə uduzan şahmatçı bu dəfə 4-cü pilləni tutdu. Reytinqinə (2632) görə 69-cu olan Nicat yalnız ilk turda özündən aşağı reytinqli rəqiblə qarşılaşdı. Makoto Rodvelə qalib gələn şahmatçı növbəti raundda Loren Fressineti yolundan kənarlaşdırdı. Bundan sonra isə onun üçün çox gərgin mübarizə başladı. Nicat 3-cü raundda dünya beşincisi Aniş Qirini məğlub etdi. Dördüncü raundda o, 37 nömrəli Peter Svidleri, beşinci raundda 53-cü Salem Salehi, 1/4 finalda 20-ci Vidit Qucratini məğlub edərək yarımfinala yüksəldi.




Foto: Tapdıq Abdullayev / Global Media Group

Nicat Bakıda yalnız dünya şahmatının ilk iki pilləsində qərarlaşan "iti zəka sahibləri"nə uduzdu. Yarımfinalda turnirin gələcək qalibi Maqnus Karlsenə məğlub olan şahmatçımız 3-cü yer uğrunda qarşılaşmada reytinq ikincisi Fabiano Karuanaya ilk görüşdə qalib gəlsə də, bunun davamını gətirə bilmədi. Yekunda o, 4-cü oldu və bu, bir çoxlarının fikrincə, inanılmaz nəticədir. Bu nəticə ilə Nicat Abasov İddiaçılar turnirində iştirak etmək hüququ qazanıb. Dünya Kubokunda ilk üçlüyə bu şans verilsə də, Maqnus Karlsen iştirakdan imtina etdiyi üçün onun belə şansı yaranıb. Kim bilir, bəlkə də gələn il Nicatı dünya çempionluğu uğrunda çinli Dinq Lijenlə mübarizədə görəcəyik...




# "NAR" "STEVİE" MÜKAFATINA LAYİQ GÖRÜLDÜ

"Nar" "Stevie® International Business Awards" beynəlxalq biznes mükafatını qazandı. "Nar" bu mükafatı "Müştəri məmnuniyyəti" nominasiyasında, son 2 il ərzində müştəri xidmətləri sahəsində uğurlarına görə layiq görüldü.

Mükafatın müstəqil hakimlərinə "Nar"ın yüksək müştəri məmnuniyyətini təmin etmək istiqamətində həyata keçirdiyi irimiqyaslı layihələr haqqında geniş hesabat təqdim edildi. Şirkətin məsafədən göstərdiyi müştəri xidmətləri, yüksək rəqabət olan Azərbaycan bazarında Müştəri Loyallığı İndeksində (Net Promoter Score) liderliyi beynəlxalq münsiflər tərəfindən xüsusi vurğulanıb.

Stevie® Awards 2002-ci ildə ABŞ-də təsis olunub və dünya üzrə biznes sahəsində fəaliyyət göstərən şirkətlərin və şəxslərin nailiyyətlərini qiymətləndirir və uğurlu nümunə kimi tanıdır. Qeyd ki, "Nar" artıq 2-ci dəfədir bu mükafata layiq görülür.

Hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.